# YENİ AZƏRBAYCAN

30 iyul
2026-cı il,
cümə axşamı
№ 133 (7200)
Qiymәti
60 qәpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan
şirin nemət yoxdur!

# Azərbaycan yeni dünya nizamında: Enerji, təhlükəsizlik və qlobal tərəfdaşlığın yüksələn ünvanı

## Yeni geosiyasi reallıqlarda Bakının yüksələn rolu




Bax səh. 2

## Strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Çin münasibətləri

Bax səh. 3

## Bakıya dəstək, Parisə kəskin etiraz




Bax səh. 4

## Ekoloji şüurdan gələcəyin fəlsəfəsinə

### IDEA Hərəkatının yaranmasından 15 il ötür

Bax səh. 5

## Yeni maliyyə alətinə keçid



Bax səh. 4

## Faydalı əməkdaşlığın daha da genişlənməsinə dair qarşılıqlı maraq...

Hazırkı mürəkkəb geosiyasi şəraitdə praqmatik və milli maraqlara söykənən xarici siyasət yürüdən dövlətlər regional sabitliyin qorunmasında həlledici rol oynayırlar. Cənubi Qafqazda bu missiyanı uğurla yerinə yetirən ölkələrdən biri məhz Azərbaycandır. Son illər ərzində həyata keçirilən ardıcıl diplomatik xətt, çoxtərəfli əməkdaşlıq təşəbbüsləri və qarşılıqlı faydaya...

Bax səh. 3

## Mığrı rayonunun Buğakar kəndi: Tarixi keçmişi və mədəni irsi

Qərbi Azərbaycanın tarixi Zəngəzur mahalı Azərbaycan xalqının qədim yaşayış məkanlarından biri olmuşdur. Bu mahalın cənub hissəsində yerləşən Mığrı rayonu tarixən azərbaycanlıların sıx yaşadığı bölgələrdən biri kimi tanınmışdır. Rayonun Nüvədi, Lehvaz, Aldərə, Tuğut, Lök, Maralzəmi, Əkərək və Buğakar kimi kəndləri bölgənin sosial-iqtisadi və mədəni həyatında mühüm rol oynamışdır. Bu yaşayış məntəqələri əsrlər boyu Azərbaycan xalqının dilini, adət-ənənələrini və mənəvi dəyərlərini yaşatmışdır.

Buğakar kəndi həmin yaşayış məntəqələri...

Bax səh. 6

## Üçtərəfli görüş...

BMT-nin Baş katibi Antonio Quterreşin sədrliyi ilə Kiprdəki bufer zonasında adanın yunan və türk liderlərinin iştirak etdikləri üçtərəfli görüş keçirilib.

Türkiyə mediası xəbər verir ki, BMT Baş katibi görüşdən sonra bildirib: “BMT sülhü zorla qəbul etdirə bilməz, lakin Kipr xalqını dəstəkləməyə sadiqdir”.

Paytaxt Nikosiyada bufer zonasında yerləşən Birləşmiş Millətlər Təşkilatının (BMT) qərargahında keçirilən görüşdə BMT-nin Baş katibi Antonio Quterreş, Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Prezidenti Tufan Erhürman və yunan Kipr Administrasiyasının (KKA) lideri Nikos Xristodulides iştirak...

Bax səh. 6

## Rusiyaya qarşı sanksiyalar güclənir




Bax səh. 6

## Avropanın hərbiləşməsi



Bax səh. 7

# İlham Əliyev Dünya Güləş Birliyinin prezidentini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviçi qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısının Nenad Laloviçlə əvvəlki görüşü məmnunluqla xatırlandı.

Azərbaycan Prezidenti ilə görüşdən şərəf hissi duyduğunu deyən qonaq 17 yaşadək güləşçilər arasında Bakıda keçirilən dünya çempionatının yüksək səviyyədə təşkil edildiyini vurğuladı, buna və ümumilikdə Dünya Güləş Birliyinin fəaliyyətinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Ölkəmizdə idmanın güləş növünün inkişafını vurğulayan Nenad Laloviç Azərbaycanda güləş üzrə müxtəlif beynəlxalq səviyyəli yarışların keçirildiyini xatırladı, Azərbaycan Güləş Federasiyası ilə uğurlu əməkdaşlıq etdiklərini dedi.

Prezident İlham Əliyev gənc idmançıların gələcəkdə uğur qazanması baxımından 17 yaşadək güləşçilər arasında Bakıda keçirilən dünya çempionatının əhəmiyyətinə toxundu və bundan sonra da ölkəmizdə bu cür idman tədbirlərinin təşkilinin önəmini qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan güləşçilərinin indiyədək çox mühüm qələbələr qazandıqlarını vurğuladı.

Görüşdə idmanın güləş növünün ölkəmizdə zəngin ənənələrə malik olduğu qeyd edildi, onun inkişafı üçün dövlət səviyyəsində görülən işlərə toxunuldu.

Azərbaycanla Dünya Güləş Birliyi arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan yeni dünya nizamında: Enerji, təhlükəsizlik və qlobal tərəfdaşlığın yüksələn ünvanı

## Yeni geosiyasi reallıqlarda Bakının yüksələn rolu

**Prezident İlham Əliyevin bu ilin 6 ayında səsləndirdiyi prioritetlər...**

**2026-cı ilin ilk altı ayı qlobal iqtisadi və geosiyasi sistemdə dərin dəyişikliklərlə müşayiət olundu. Müxtəlif regionlarda davam edən münaqişələr, enerji bazarındakı qeyri-müəyyənlik, nəqliyyat marşrutlarının yenidən formalaşması və dövlətlərin enerji təhlükəsizliyinə artan diqqəti beynəlxalq münasibətlər sistemində yeni reallıqlar yaratdı. Belə mürəkkəb şəraitdə Azərbaycan yalnız regional deyil, həm də qlobal miqyasda etibarlı tərəfdaş və məsuliyyətli aktor kimi öz mövqeyini daha da möhkəmləndirdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən praqmatik xarici siyasət və uzunmüddətli enerji strategiyası ölkəmizin yeni iqtisadi-siyasi nizamda rolunu əhəmiyyətli dərəcədə artırdı. Son altı ay ərzində Azərbaycanın enerji diplomatiyası, nəqliyyat-logistika imkanları və çoxtərəfli əməkdaşlıq təşəbbüsləri beynəlxalq tərəfdaşlar tərəfindən yüksək qiymətləndirildi. Xüsusilə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın oynadığı rol daha da aktuallaşdı. Rusiya-Ukrayna müharibəsinin davam etməsi, Yaxın Şərqdə gərginliyin artması və qlobal enerji bazarındakı risklər fonunda Azərbaycan sabit, etibarlı və uzunmüddətli enerji təchizatçısı kimi öz öhdəliklərini uğurla yerinə yetirdi. Bu, ölkəmizin beynəlxalq nüfuzunu artırmaqla yanaşı, yeni əməkdaşlıq platformalarının formalaşmasına da mühüm töhfə verdi.**

## Avropanın enerji təhlükəsizliyində Azərbaycanın artan rolu

2022-ci ildə Avropa İttifaqı ilə imzalanan strateji enerji tərəfdaşlığı bu gün artıq konkret nəticələr verən və gələcəyə hesablanmış əməkdaşlıq modelinə çevrilib. Eyni zamanda, bərpaolunan enerji sahəsinə yatırılan investisiyalar, "yaşıl enerji" layihələrinin genişləndirilməsi və Azərbaycanın enerji ixrac marşrutlarının şaxələndirilməsi ölkənin qlobal enerji xəritəsində əhəmiyyətini daha da artırır. Bütün bunlar göstərir ki, Azərbaycan yeni dünya nizamında yalnız enerji resursları ixrac edən dövlət deyil, həm də beynəlxalq enerji təhlükəsizliyinin formalaşmasında fəal iştirak edən, strateji qərarlar qəbul edən və qlobal iqtisadi proseslərə təsir göstərən mühüm oyunçulardan biridir. Bu mənada, ilin əvvəlində səsləndirilən mesajlar özünün praktik həllini tapmaqdadır. Belə ki, bu ilin martında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında Prezident İlham Əliyev gələcək planlarımızla bağlı bildirmişdi ki, "Planlarımıza gəldikdə, bəli, biz Avropanın enerji bazarında mövcudluğumuzu genişləndirmək niyyətindəyik. Artıq Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlamışıq. Beləliklə, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır. Qarşıdakı illərdə Azərbaycanın yataqlarından yeni qaz hasilatı ilə əlaqədar olaraq hasilat həcmlərini artırmaq imkanımız mövcuddur. Lakin bunun üçün şübhəsiz ki, ötən dəfə də qeyd etdiyimiz kimi, mövcud qaz nəqli infrastrukturlarının genişləndirilməsi üzərində düşünməliyik. Çünki bu gün Cənub Qaz Dəhlizi artıq tam yüklənmiş vəziyyətdədir. Biz bazarda mövcud tələbatı və qlobal vəziyyəti nəzərə alaraq, artacaq tələbatı qarşılamaq məqsədilə əlavə genişləndirmə və interkonnektor imkanlarını araşdırırıq. Məqsədimiz ixracı maksimum səviyyəyə çatdırmaqdır".




Bəli, bu prioritet Azərybaycan üçün olduqca vacibdir. Avropanın enerji təminatında yüksək rol oynamaq ölkəmiz üçün paralel olaraq siyasi baxımdan da mühüm əhəmiyyət kəsb edir. Siyasət və iqtisadiyyatın bir-birinə bağlı nəsnələr olduğunu göz önünə gətirsək, Bakı ilə Brüssel arasında enerji dialoqunun inkişafı vacib perspektivlər vəd edir. Bu dialoqun inkişafı isə mümkün reallıqdır. İyulun 21-də Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri çərçivəsində Berlində baş tutan mətbuat konfransında Almaniya kansleri Fridrix Merts bildirdi ki, "dörd il yarım əvvəl Rusiyadan qaz idxalını dayandırdıqdan sonra biz təbii ki, yeni təchizat mənbələrini axtarmağa başladıq və Azərbaycan bu baxımdan mühüm rol oynayır. Bu, iqtisadi baxımdan bizim üçün maraqlı perspektivdir. Biz, həmçinin digər təchizat mənbələrini də axtardıq və müəyyən etdik. Bu baxımdan mən bir daha Prezident Əliyevə təşəkkür edirəm ki, bu məsələni bu gün müzakirə edə bildik və Azərbaycandan daha böyük həcmdə qazın əldə olunması imkanlarını araşdırdıq. Bu, həmçinin birgə razılaşmamızın bir hissəsidir və Azərbaycanla aparacağımız növbəti müzakirələrin mövzusu olaraq qalacaq".

## "Yaşıl enerji" gündəliyi: Azərbaycanın gələcəyə hesablanmış investisiyası

Aİ-nin lider dövləti sayılan Almaniyanın belə bir perspektivə "isti yanaşması" bütövlükdə region üçün yeni bir mərhələ başladır. Bu mərhələ isə yalnız ənənəvi enerji resurslarından ibarət olmayacaq. Bakı bu gün uğurla özünün yaşıl gündəliyini qlobal mühitə təqdim edir. Həm bərpaolunan enerji, həm də elektrik enerjisinin ixracı məsələsi artıq gündəmin aparıcı mövzularındandır. Enerji tərəfdaşlığının aparıcı xətti bərpaolunan enerji mənbələri sahəsində əməkdaşlığın genişləndirilməsi və Azərbaycanın "yaşıl potensialı"nın Avropaya tədarükü, Qara dəniz sualtı kabeli layihəsinin qlobal bağlantıya çevrilməsinin başa çatdırılması ilə bağlıdır. Azərbaycan ilə Avropa İttifaqı arasında enerji tərəfdaşlığının yeni mərhələdə inkişafı məqsədilə yaradılan yüksək səviyyəli enerji dialoqu da bu prioritetləri əks etdirir. 2022-ci il dekabrın 17-də Buxarestdə imzalanmış "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in tələblərinə əsasən, dörd ölkənin - Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniyanın iştirakı ilə daha geniş format yaradılıb. "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" və ya "Qara dəniz kabeli" adlanan layihə Azərbaycanın külək və Günəş enerjisi stansiyalarından əldə edilən "yaşıl enerji"nin Avropaya nəqlini nəzərdə tutur. "Həmrəylik halqası" marşrutu sxeminə əsasən, Xəzər-Aİ "yaşıl enerji" dəhlizi Avropaya təhlükəsiz və etibarlı mənbədən bərpaolunan enerji resurslarını nəql etməklə, Azərbaycanın ixracının şaxələnməsini təmin edəcək. Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında Prezident İlham Əliyev bu məsələ haqqında demişdi ki, artıq bir neçə ildir ki, Məşvərət Şurası çərçivəsində müzakirə olunan məsələlərin bir hissəsi də yaşıl gündəlikdir və bu istiqamətdə də müsbət nəticələr barədə məlumat verə bilərik: "Cari ilin yanvarında regionda indiyədək ən böyük külək elektrik stansiyasının - 240 meqavat gücündə obyektin açılışı olub. Layihə "ACWA Power" tərəfindən maliyyələşdirilib və həyata keçirilib. Bu, bizim artıq malik olduğumuz potensiala əlavə edilən yeni yaşıl enerji mənbəyidir. 2023-cü ildə "Masdar" şirkəti 230 meqavat gücündə Günəş elektrik stansiyası inşa edib. Bir neçə layihə artıq icra mərhələsindədir və gələcək illərdə biz alternativ enerji mənbələri ilə işləyən yeni elektrik stansiyalarının açılışını gözləyirik. Burada bizdə xarici sərmayədarlardan və yerli şirkətlərdən ibarət müsbət kombinasiya mövcuddur. Yerli şirkətlər dedikdə, əlbəttə ki, SOCAR-ı nəzərdə tuturam. Lakin təkcə SOCAR yox, həmçinin özəl şirkətlər alternativ enerji mənbələrinə investisiya yatırmağa başlayıb, çünki burada böyük potensial və bazarda tələbat var. Artıq ötürücü xətlər mövcuddur, lakin daha çox ötürücü xətlər olacaq. Biz bu məsələ üzərində işləməliyik. Biz enerji kabelləri - Azərbaycandan Avropaya Qara dənizin dibi ilə gedən enerji kabeli və Mərkəzi Asiyadan Azərbaycana gələn enerji kabeli üzərində birlikdə işləməliyik. Hər iki müqavilə imzalanıb və bir layihədə iqtisadi-texniki əsaslandırma tamamlanmaq üzrədir, digər layihədə isə bu iş davam edir. Bütün bu layihələrin reallaşacağı zaman onlar çox dayanıqlı olacaq və deyərdim ki, bir çox ölkələrin enerji dəhlizləri üçün ekzistensial əhəmiyyət kəsb edəcək. Alternativ enerji ilə bağlı planlarımız artıq imzalanmış müqavilələrə əsaslanır".

Artıq bizim yaşıl gündəliyimizlə, yaşıl enerji təqdimatımızla maraqlanan ölkələrin sırası durmadan genişlənir. Prezident İlham Əliyevin fikirləri 4 aydan sonra Aİ-nin aparıcı siyasi paytaxtlarından birində - Berlində təsdiqlənir. Almaniyada keçirilən mətbuat konfransı zamanı kansler Merts ölkəsinin Bakı ilə yaşıl və elektrik enerjisi əməkdaşlığının inkişafı prioritetlərini açıqlayır. Sitat: "Biz Azərbaycanla əməkdaşlıq yolu ilə enerji təchizatımızı daha da şaxələndirmək istəyirik. Bu gün biz, həmçinin bərpaolunan enerji və hidrogendən istifadənin genişləndirilməsini müzakirə etdik".

Bəli, Azərbaycanın yaşıl gündəliyi sürətli şəkildə inkişaf etdirilir. Artıq bir sıra layihələr istismar mərhələsindədir - gələn ilin sonunadək Günəş və külək enerjisi üzrə ümumi gücümüz 2 giqavata çatacaq. 2032-ci ilin sonunadək isə bu göstərici 8 giqavat təşkil edəcək. Fəal şəkildə inkişaf etdirilən hidroenerji potensialını da nəzərə alsaq, xüsusilə Qarabağda və Şərqi Zəngəzurda artıq 300 meqavatdan çox güc istifadəyə verilib. Bu da ölkəmiz üçün əlavə enerji potensialı yaradır. Bu potensial imkan verir ki, Azərbaycan tərəfdaşları ilə enerji kabeli layihələri üzrə sıx əməkdaşlıq etsin. Texniki-iqtisadi əsaslandırma mərhələsinin artıq yekunlaşmaq üzrə olduğu "Qara dəniz Enerji Kabeli" layihəsi Azərbaycanı Gürcüstan, Qara dəniz vasitəsilə Rumıniya, Macarıstan və digər ölkələrlə birləşdirəcək. Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan marşrutu üzrə quruda çəkiləcək elektrik kabeli layihəsi də hazırda icra mərhələsindədir. Ölkəmiz həmçinin Mərkəzi Asiyadakı tərəfdaşlarıyla birlikdə Xəzərin şərq sahillərindən Azərbaycana qədər uzanacaq yaşıl enerji kabeli layihəsi üzərində işləyir. Bütün görülən işlərin aparıcı məqsədi isə Prezident İlham Əliyev tərəfindən açıq əşkildə bildirilib: "Biz hamımız planetin təhlükəsiz və təmiz olmasını istəyirik. Heç birimiz iqlim dəyişikliyinin fəsadlarını görmək istəmirik".

## Sabitlik və təhlükəsizlik: Azərbaycanın beynəlxalq siyasətinin əsas prioriteti

Təbii ki, uğurlu iqtisadi inkişaf, möhkəm enerji dialoqu, fasiləsiz və kəsintisiz qlobal bağlantılar yalnız və yalnız təhlükəsizlik mühitində mövcud ola bilər. Qlobal mühitdə təhlükəsizliyə qarşı yaranan təhdidlər isə günü-gündən artmaqdadır. Dünya son illərdə geosiyasi ziddiyyətlərin daha da kəskinləşdiyi, yeni hərbi-siyasi gündəmlərin ortaya çıxdığı, beynəlxalq münasibətlər sistemində gərginliyin artdığı bir mərhələdən keçir. Müharibələr, terrorizm, hibrid təhdidlər və kiber hücumlar beynəlxalq təhlükəsizliyi zəiflədən amillər kimi ön plana çıxır. Belə bir mühitdə təhlükəsizlik sisteminin qorunub saxlanılması, yeni çağırışlara adekvat mexanizmlərin formalaşdırılması və qlobal həmrəyliyin təmin olunması bəşəriyyətin qarşısında duran əsas vəzifələrdən biridir. Bu ilin əvvəllində Bakıda baş tutan "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumunda Prezident İlham Əliyev bildirib ki, "Zənnimcə, indi heç vaxt olmadığı qədər aydındır ki, təhlükəsizlik, sabitlik və müdafiə məsələləri hər bir ölkənin gündəliyində bir nömrəli prioritet olmalıdır. Çünki bunlar olmadan qalan bütün məsələlər tamamilə mənasızdır. Öz inkişafı uğrunda illər, onilliklər ərzində səy göstərmiş ölkələr indi ciddi risklərlə üzləşirlər. Təhlükəsizlik və sabitlik əsas amillər olmalıdır və biz səylərimizi məhz bu istiqamətdə birləşdirməliyik".

Azərbaycan hər zaman dünyaya sülh və təhlükəsizlik çağırışları ilə yadda qalıb. Hətta 30 illik işğala məruz qaldığı dövrdə belə ölkəmiz regionun təhlükəsizlik arxitekturasına zərər gətirən bu amili belə sülh yolu ilə aradan qaldırmağa çalışıb. Bu mənada, Azərbaycan dünyaya ədalətli, beynəlxalq hüquqa söykənən, humanist, antoqonizmin inkar edilməsini hədəfləyən, daha çox danışıqlar və müzakirələr yolu ilə həll planlarının müəyyənləşdirilməsini özündə ehtiva edən siyasi yanaşma təqdim edir. Azərbaycan həm sivilizasiyalar, həm siyasi qütblər, həm də iqtisadi güc mərkəzləri arasında dialoqun mümkün olduğunu təlqin edir. Dövlət başçısı sözügedən Forumda bildirib ki, "Regional təhlükəsizlik Azərbaycan üçün hər zaman bir nömrəli məsələ olub. Çünki mən Bakıda bir çox forumlardakı çıxışlarımda qeyd etmişəm ki, işğal dövründə bizim üçün sülh və suverenliyimizin bərpası hər zaman gündəliyimizin əsas prioriteti olub. Xoşbəxtlikdən, biz artıq sülh şəraitində yaşayırıq".

Bəli, Bakının son 6 ildə yaratdığı siyasi mənzərə özündə mühüm komponentləri birləşdirir - regional baxımdan Cənubi Qafqazda, ümumən geosiyasi baxımdan Avrasiyada yeni bir nizamın şərtləri və gündəmi müəyyənləşib. Ölkəmiz təkcə Cənubi Qafqazda deyil, bütövlükdə Avrasiya məkanında sülhün və sabitliyin təmin olunmasına töhfə verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli diplomatiya, beynəlxalq tərəfdaşlıq platformaları və təhlükəsizlik təşəbbüsləri Azərbaycanın bu sahədə etibarlı tərəfdaş kimi qəbul olunmasına şərait yaradıb. Azərbaycanın həyata keçirdiyi siyasətin yalnız regional deyil, qlobal təhlükəsizlik indeksinin artırılmasına yönəlməsi ölkəmizin beynəlxalq müstəvidə artan nüfuzunu və strateji əhəmiyyətini təsdiqləyir. Bakı platforması beynəlxalq miqyasda sülhün qorunması, risklərin azaldılması və gələcək təhlükəsizlik modelinin formalaşdırılması baxımından strateji əhəmiyyət kəsb edir. Son 6 ayda baş verənlər bu fikirlərin əyani sübütüdür:

- Son 6 ayda sübut olundu ki, Qərb dünyası özünün iqtisadi gələcəyini Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı təhlükəsizlik arxitekturasının inkişafında görür;

- Azərbaycanın Vətən müharibəsində əldə etdiyi qələbənin siyasi nəticələrindən biri kimi meydana çıxan Zəngəzur dəhlizi (TRİPP) layihəsi, eləcə də, Orta Dəhlizin daha işlək status qazanması Avrasiyanın ticari imkanlarını genişləndirir;

- Nəhayət, Azərbaycan son 6 ayda davam edən regional konfliktlərin fonunda Cənubi Qafqazda formalaşdırıdığı situasiya ilə yeni bir nümunə ortaya qoyur. "Ən yaxşısı sülhdür" şüarı son 6 ayda həm iqtisadi, həm ticari, həm də siyasi - hərbi kontekstdə öz təsdiqini tapır...

Azərbaycan nümunəsində Cənubi Qafqazda artıq müharibə riski aradan qaldırılıb - separatizm məhv edilib. Ən əsası, Ermənistanın destruktiv siyasətdən uzaqlaşması üçün real mexanizm formalaşdırılıb. Azərbaycanın təhlükəsizlik fəlsəfəsi paralel inkişaf trayektoriyasına əsaslanır - biz sülh üçün beynəlxalq hüquq çərçivəsində mübarizəmizi ortaya qoyaraq, həm də digər vasitələri diqqətdə saxlayırıq.

## Orta Dəhliz və Zəngəzur təşəbbüsü: Azərbaycanın qlobal bağlantı strategiyası

Hazırki mənzərədə geosiyasi transformasiyalar, yeni nəqliyyat marşrutlarına artan tələbat Azərbaycanın strateji əhəmiyyətini daha da yüksəldir. Ölkənin malik olduğu inkişaf etmiş nəqliyyat infrastrukturu, etibarlı tərəfdaş imici və praqmatik xarici siyasət kursu onu regionun sabitlik və əməkdaşlıq gündəliyinin formalaşdırılmasında əsas iştirakçı kimi ön plana çıxarır. Bu baxımdan, Azərbaycanın Cənubi Qafqazda oynadığı rol yalnız milli maraqların təmin edilməsi ilə məhdudlaşmır, həm də daha geniş Avrasiya məkanında sülhün, təhlükəsizliyin və dayanıqlı inkişafın təşviqinə xidmət edir. Xüsusilə, Orta Dəhlizin diversifikasiyası məsələsi real iqtisadi dialoqun qlobal miqyasda ən mühüm mövzusudur. Bu səbəbdəndir ki, Orta Dəhlizin inkişafı, Bakının Zəngəzur dəhlizi (TRİPP) təşəbbüsü həm Vaşinqtonda təsdiqlənir, həm Brüsseldə dəstəklənir, həm də Pekində yüksək səviyyədə qarşılanır. Prezident İlham Əliyev ilin əvvəlində bildirmişdi ki, münaqişələr ənənəvi nəqliyyat marşrutlarının pozulmasına səbəb olur və bu, həm insanlar, həm ölkələr, həm iqtisadiyyat, həm də tədarük zəncirləri üçün böyük çətinliklər yaradır: "Bağlılıq və nəqliyyat marşrutları pozulduqda dünya ölkələrinin əksəriyyəti çox çətin vəziyyətlə üzləşir. Azərbaycan qazıntı yanacağı növlərinin satışından əldə etdiyi gəlirlər sayəsində nəqliyyat və logistika infrastrukturuna böyük sərmayə yatırıb. Bu gün biz Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzrə əvəzolunmaz tərəfdaşıq və əslində, həm Orta Dəhlizdə, həm də Şimal-Qərb dəhlizində fəal iştirak edən və investisiya yatıran yeganə ölkəyik. Azərbaycan ərazisində hər iki dəhliz üzrə tikinti layihələri tam şəkildə başa çatdırılmışdır".

Bakının nəqliyyat imkanlarının təşviqi məsələsinin qlobal güc mərkəzləri tərəfindən təsdiqlənməsi isə bizim irəli sürdüyümüz priorietlərin vacib nüanslara əsaslanmasını bir daha sübut edir:

- Zəngəzur dəhlizi (TRİPP) layihəsinin Vaşinqtoqnda təsdiqlənməsi olduqca vacib amildir. Bu ilin fevralında ABŞ-ın vitse-prezidenti Cey.Di.Vensin Bakıya səfəri çərçivəsində keçirilən mətbuat konfransındakı çıxışında Prezident İlham Əliyev bildirmişdi ki, "Tramp-Vens administrasiyasının regionumuzdakı səylərinin mühüm nəticələrindən biri Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu - TRIPP layihəsidir ki, o, nəinki Azərbaycanın iki hissəsini birləşdirəcək, o cümlədən Azərbaycan, Ermənistan və digər qonşuların ərazisi vasitəsilə Asiya ilə Avropanı birləşdirəcək çox etibarlı, təhlükəsiz və böyükmiqyaslı daşımalar dəhlizidir".

- Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen iyulun 1-də Bakıda mətbuata bəyanatında bildirmişdi ki, Cənubi Qafqaz Avropanı, Xəzər regionunu və Mərkəzi Asiyanı birləşdirən dünyanın ən möhtəşəm kəsişmələrindən biridir: "Onun strateji əhəmiyyəti artmaqda davam edir. Azərbaycan burada əsas rol oynaya bilər. Regional əməkdaşlığı və sabitliyi irəli aparmaq üçün çox az sayda ölkənin sizin ölkəniz kimi yerləşməsi var. Azərbaycan öz strateji coğrafiyasını artan iqtisadi, siyasi və regional nüfuzu ilə düşünülmüş şəkildə birləşdirir. Məhz buna görə biz Avropa İttifaqı-Azərbaycan Bağlantı Tərəfdaşlığının başlanılmasını təklif edirik".

- Yeni iqtisadi nizamın ən strateji məqamlarından olan Şərq-Qərb dəhlizi üzrə əlaqələr Bakı-Pekin münasibətlərinə xüsusi rəngarənglik qatır. Ötən ilin aprelində iki ölkə arasında imzalanan hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat bu əməkədaşlığın istiqamətlərini tam şəkildə özündə əks etdirir. Vurğulamaq lazımdır ki, Orta Dəhlizin inkişafına xüsusi həssaslıqla yanaşan Çinin Azərbaycana münasibətdə strateji tərəfdaş yanaşması ölkəmizə həm siyasi həm də iqtisadi üstünlüklər vəd edir. Paralel olaraq iki ölkə bu əlaqələrin şaxələndirilməsi istiqamətində davamlı işlər görürlər. Prezident İlham Əliyev ilin əvvəlində bildirmişdi ki, Çin Xalq Respublikası hazırda Xəzər dənizinə dəmir yolunun, Qırğızıstan və Özbəkistan vasitəsilə daha bir dəmir yolunun tikintisini maliyyələşdirir, milyardlarla dollar sərmayə qoyur: "Orada relyef çox mürəkkəbdir və çoxsaylı tunellər və körpülər tikilməlidir. Bu fakt onu göstərir ki, onlar bu layihəni maliyyələşdirmək qərarına gəldikləri üçün həmin dəmir yolu boş qalmayacaq. Xəzər dənizinə və deməli, Azərbaycana yükdaşımaların həcmi artacaq. Mərkəzi Asiya ölkələri ilə yanaşı, Çindən əlavə yükdaşımalar təbii ki, Şərq-Qərb marşrutunu, Orta Dəhlizi tam işlək vəziyyətə gətirəcək".

## Qlobal proseslərin mərkəzində Azərbaycan modeli

Beləliklə, 2026-cı ilin ilk altı ayı göstərdi ki, Azərbaycan artıq qlobal siyasi və iqtisadi proseslərin passiv iştirakçısı deyil, onların formalaşmasına təsir göstərən strateji aktorlardan biridir. Enerji təhlükəsizliyi, "yaşıl enerji" layihələri, beynəlxalq nəqliyyat dəhlizləri və regional təhlükəsizlik sahəsində həyata keçirilən məqsədyönlü siyasət ölkəmizin etibarlı tərəfdaş statusunu daha da gücləndirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan uzunmüddətli inkişaf strategiyası Azərbaycanın milli maraqlarını qlobal çağırışlarla uzlaşdıraraq yeni əməkdaşlıq imkanları yaradır. Mövcud reallıq təsdiqləyir ki, Azərbaycan yeni dünya nizamında sabitlik, etibarlılıq və davamlı inkişafın aparıcı mərkəzlərindən biri kimi öz mövqeyini ardıcıl şəkildə möhkəmləndirir.

*Pərviz SADAYOĞLU*

# Faydalı əməkdaşlığın daha da genişlənməsinə dair qarşılıqlı maraq...

## Rusiya siyasi dairələri ikitərəfli əlaqələrin ruhuna zidd fikirlərdən istifadə etməməlidir

Hazırkı mürəkkəb geosiyasi şəraitdə praqmatik və milli maraqlara söykənən xarici siyasət yürüdən dövlətlər regional sabitliyin qorunmasında həlledici rol oynayırlar. Cənubi Qafqazda bu missiyanı uğurla yerinə yetirən ölkələrdən biri məhz Azərbaycandır. Son illər ərzində həyata keçirilən ardıcıl diplomatik xətt, çoxtərəfli əməkdaşlıq təşəbbüsləri və qarşılıqlı faydaya əsaslanan tərəfdaşlıq modeli Azərbaycanın bölgədə etibarlı, məsuliyyətli və sözünə sadiq dövlət kimi mövqeyini daha da möhkəmləndirib.

Azərbaycanın xarici siyasət strategiyasının əsasını qarşılıqlı hörmət, suverenliyə ehtiram, daxili işlərə qarışmamaq və beynəlxalq hüququn fundamental prinsiplərinə söykənən əməkdaşlıq təşkil edir. Rəsmi Bakı bütün dövlətlərlə, o cümlədən, region ölkələri ilə münasibətlərdə dialoq və əməkdaşlıq modelini təşviq edir, iqtisadi inteqrasiya, nəqliyyat-kommunikasiya layihələri və enerji tərəfdaşlığı vasitəsilə ümumi inkişafın təmin olunmasına çalışır. Məhz bu yanaşma Azərbaycanın Cənubi Qafqazın siyasi-iqtisadi tənzimləyicisi və sabitləşdirici amili kimi çıxış etməsinə şərait yaradıb. Dövlətimizin təşəbbüsü ilə reallaşan beynəlxalq layihələr, qonşu ölkələrlə formalaşan strateji əlaqələri və sülh gündəliyinə verdiyi töhfələr göstərir ki, Azərbaycan regionun gələcəyini əməkdaşlıq, təhlükəsizlik və davamlı inkişaf üzərində qurmağa üstünlük verir.

### Azərbaycan-Rusiya əlaqələri konstruktiv xarakter daşıyır

Azərbaycan ilə Rusiya arasındakı münasibətlər də daima işgüzar xarakteri ilə seçilir. Uzun illərdir ki, iqtisadi platformalarda yaxın əməkdaşlarımızdan biri sayılan Moskva ilə əlaqələrimiz regionda mühüm ştrixlərlə seçilir. Qeyd edək ki, iyulun 28-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. İkitərəfli və beynəlxalq gündəliyə dair aktual məsələləri müzakirə edən liderlər Azərbaycan-Rusiya əlaqələrinin konstruktiv xarakter daşıdığını, hökumətlərin və müvafiq strukturların xətti ilə fəal dialoqun aparıldığını qeyd ediblər. Faydalı əməkdaşlığın daha da genişlənməsinə dair qarşılıqlı maraq təsdiqlənib.

### İkitərəfli iqtisadi əlaqələr...

Qeyd edək ki, iki ölkə arasında əməkdaşlıq çərçivəsi genişdir. 2025-ci ildə Azərbaycanla Rusiya arasında ticarət əməliyyatlarının həcmi 4,920 milyard ABŞ dolları təşkil edib. Bu, 2024-cü ildəki göstərici ilə müqayisədə 120,4 milyon ABŞ dolları və ya 2,5 faiz çoxdur. Hesabat dövründə Rusiya ilə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 10,08 faizi həcmində olub. Bununla da Rusiya hesabat dövrü ərzində Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı ölkələr sırasında 3-cü pillədə qərarlaşıb.

2026-cı ilin ilk 6 ayında Azərbaycanın Rusiya ilə ticarət dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə 791,9 milyon ABŞ dolları və ya 31,4 faiz azalaraq 1 milyard 728,3 milyon ABŞ dolları təşkil edib. Hesabat dövründə Rusiyanın Azərbaycanın ümumi xarici ticarət dövriyyəsindəki payı 10,33 faizdən 7,01 faizə enib. Bununla da Rusiya Azərbaycanın ən böyük ticarət tərəfdaşları arasında üçüncü yerdən beşinci yerə geriləyib. Qeyd edək ki, 2026-cı ilin yanvar-iyun aylarında Azərbaycandan Rusiyaya ixrac ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz artaraq 608,6 milyon ABŞ dollarına çatıb. Eyni zamanda, Rusiyadan Azərbaycana idxal 810 milyon ABŞ dolları və ya 42 faiz azalaraq 1 milyard 119,7 milyon ABŞ dolları olub. Hesabat dövründə Rusiyanın Azərbaycanın ümumi idxalındakı payı da 16,75 faizdən 13,42 faizə geriləyib. Nəticədə ölkə idxal tərəfdaşları arasında ikinci yerdən üçüncü yerə enib.



İki ölkə arasında iqtisadi və hökumətlərarası komissiyalar fəaliyyət göstərir - dövlətlər arasında ticarət, sənaye, nəqliyyat və su ehtiyatlarının idarə olunması kimi məsələlər müzakirə edilir. Bu görüşlərdə həmsədrlər iqtisadi əməkdaşlığın dərinləşdirilməsini və regional layihələri dəyərləndirirlər.

### Rusiya Ermənistanla münasibətlərinə dolayısı ilə də olsa Azərbaycan torpaqları üzərindən aydınlıq gətirməməlidir

Rusiya-Azərbaycan münasibətləri hər zaman yaxın qonşuluq münasibətləri çərçivəsində inkişaf edir. İki ölkə arasında normal siyasi dialoq mühiti hökm sürsə də, bəzən Rusiyanın siyasi dairələrinin verdikləri bəzi açıqlamalar bu normal münasibətlərin ruhuna zidd xarakter daşıyır. Məsələn, bir neçə gün öncə Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarovanın Qarabağ bölgəsi və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə bağlı səsləndirdiyi fikirlər ikitərəfli əlaqələrin inkişafı prosesinə mənfi amil kimi təsir göstərir. Vurğulanmalıdır ki, bir çox hallarda Rusiyanın rəsmi orqanları Ermənistan ilə Rusiya arasında münasibətlərin mənfi istiqamətdə inkişafını məhz Vətən müharibəsi dövründə KTMT-nin mövqeyi ilə əlaqələndirirlər. Düzdür, Ermənistan tərəfi də əlaqələrin pozulmasını bu rakursdan qiymətləndirməyə çalışır - Rusiya tərəfi isə iddia edir ki, KTMT-nin məsələyə müdaxilə etməməsinə səbəb Ermənistanın özünün qondarma qurumu tanımamasından irəli gəlir.

Qeyd olunmalıdır ki, Sovet İttifaqının dağılması ilə işğala və təcavüzə məruz qalan Azərbaycan heç bir zaman bu faktla barışmayıb. BMT və onun kimi digər yüksək strukturların tribunasından Azərbaycan həqiqətləri səsləndirilib, Qarabağın Azərbaycanın tarixi, ayrılmaz və suveren ərazisi olması faktı bütün beynəlxalq aləmə çatdırılıb. Tarix yaranan gündən - minilliklər boyu bu region Azərbaycanın ərazisi olub və olacaq. 1990-cı illərin əvvəlində Ermənistanın etdiyi hərəkətlər isə İŞĞAL FAKTI idi. Azərbaycan yorulmadın, usanmadan, hətta qarşısını müəyyən maneələrlə kəsməyə çalışılsa belə bu faktı bütün dünyaya çatdırdı. Bütün beynəlxalq strukturlar, başda BMT TŞ olmaqla Qarabağın Azərbaycanın suveren ərazisi olmasını təsdiqləyən qətnamələri, qərarları və bəyanatları mövcuddur. Beləliklə, 2020-ci ildə və 2023-cü ildə Azərbaycan öz ərazi bütövlüyünü, suverenliyini təmin edən zaman həm də tarixi ədalət öz yerini tapdı. Qarabağ ərazisi işğaldan azad edildi, beynəlxalq hüquq bərpa olundu. Artıq 6 ildir ki, işğal faktı aradan qaldırılıb, regionda yeni bir reallıq hökm sürür.

Ermənistan ilə Rusiya arasındakı hazırki münasibətlər heç kimə sirr deyil - İrəvan Kremlin orbitindən tam imtina edərək Aİ-yə üz tutub. Bu, Ermənistanın daxili işidir. Rusiya isə ciddi-cəhdlə bu faktı “fərqli istiqamətlərdə yozmağa çalışır”. Münasibətlərdəki gərginliyin Vətən müharibəsi, antiterror tədbirləri zamanı Azərbaycanın öz tarixi, hüquqi ərazisi olan Qarabağın azad edilməsi ilə faktı ilə “uzlaşdırılmasına” çalışılması isə həm diplomatik cəhətdən qeyri-etik, həm də siyasi cəhətdən qüsurlu bir haldır. Moskva İrəvan ilə münasibətlərini Qarabağ üzərində spekulyasiya etməklə nizama salmağa “çalışırsa”, bu ən böyük səhvdir.

Yeri gəlmişkən, Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə yerli medianın bu barədə sualını cavablayıb. Qeyd olunub ki, Mariya Zaxarovanın keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı növbəti dəfə səsləndirdiyi fikirlər reallığın təhrif olunmasıdır. Qarabağ bölgəsi beynəlxalq ictimaiyyət, o cümlədən Rusiya Federasiyası tərəfindən hər zaman Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınıb. Bu səbəbdən, KTMT mexanizmlərinin 30 il ərzində Ermənistanın işğalı altında saxlanmış Azərbaycanın suveren ərazilərinə münasibətdə tətbiq edilməsi məsələsini davamlı şəkildə gündəmdə saxlamaq cəhdi və bunun Qarabağ bölgəsinin Ermənistan tərəfindən tanınıb-tanınmaması ilə əlaqələndirilməsi Rusiya tərəfinin Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı rəsmi mövqeyinə zidd olmaqla yanaşı, tamamilə əsassızdır.

Vurğulanıb ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini beynəlxalq hüququn tələblərinə uyğun olaraq bərpa edib və bununla keçmiş münaqişə həll olunub. Bu çərçivədə, Rusiya-Ermənistan münasibətlərinə aid mövzuların Azərbaycanla əlaqəli şəkildə şərh edilməsi təcrübəsinə son qoyulmalıdır.

Qarabağın Azərbaycanın tərkib hissəsi olmasını təsdiqləyən beynəlxalq mövqe son 30-40 ildə bütün aparıcı beynəlxalq təşkilatların qətnamə və bəyanatlarında öz əksini tapıb. Bu sənədlər beynəlxalq hüququn əsas prinsiplərinə-dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına əsaslanır. Bütün bəyanat və qətnamələrdə Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəstək ifadə olunur - oratya qoyulan ümumi mövqe isə ondan ibarətdir ki, Qarabağ Azərbaycan Respublikasının ərazisidir, heç bir beynəlxalq təşkilat qondarma “Qarabağın “müstəqilliyini” tanımayıb, Ermənistanın bu ərazilərdə hərbi mövcudluğu işğal kimi qiymətləndirilib, işğal olunmuş ərazilərdən qoşunların çıxarılması tələb olunub.

Beləliklə, Rusiyanın Ermənistanla “münasibətlərinə” dolayısı ilə də olsa Azərbaycan torpaqları üzərindən aydınlıq gətirmək cəhdləri nə hüquqi, nə də mənəvi əsasa sığmır.

***Sadiq İSMAYILZADƏ***

# Strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Çin münasibətləri

## İki ölkə arasında hərbi əməkdaşlığın inkişafı qarşılıqlı maraqlara uyğundur







Çin Xalq Respublikası ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Bu gün Prezident İlham Əliyev ilə Çin lideri Si Cinpin arasında qarşılıqlı inam və etimada əsaslanan yüksək səviyyəli dostluq münasibətləri mövcuddur. Təsadüfi deyil ki, Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycan Prezidenti cənab İlham Əliyevi Çin xalqının “böyük dostu” adlandırıb. Azərbaycanla Çin arasında münasibətlər qədim İpək yolu vasitəsilə başlayıb və bu əlaqələr bu günədək davamlı inkişaf edir. İki xalq arasında tarixi və mədəni əlaqələrin təməli, qədim dövrlərə gedib çıxsa da, müstəqillik illərində bu münasibətlər daha da möhkəmlənib və hər iki ölkənin rifahı naminə müxtəlif sahələrdə inkişaf edib.

### Çin Xalq Azadlıq Ordusunun yaranmasının 99-cu ildönümü...

Yeri gəlmişkən, iki ölkənin əlaqələri iyulun 28-də Bakıda keçirilən Çin Xalq Azadlıq Ordusunun yaranmasının 99-cu ildönümünə həsr olunmuş tədbirdə də diqqət mərkəzində olunub. Əvvəlcə Çinin Azərbaycandakı səfiri Lu Mey bildirib ki, 1927-ci ildə yaradıldığı gündən etibarən Çin Xalq Azadlıq Ordusu ölkənin dövlət suverenliyinin, ərazi bütövlüyünün, təhlükəsizliyinin və inkişaf maraqlarının qorunması istiqamətində üzərinə düşən vəzifələri yerinə yetirib, eyni zamanda, qlobal sülhün və sabitliyin möhkəmləndirilməsində mühüm rol oynayıb. Səfir qeyd edib ki, Çin ordusu BMT-nin sülhməramlı əməliyyatlarında, beynəlxalq humanitar yardım və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması missiyalarında fəal iştirak edir, beynəlxalq hərbi mübadilə və əməkdaşlığı davamlı şəkildə genişləndirir.

Ölkələrimiz arasında münasibətlərə gəlincə, Lu Mey vurğulayıb: “Çin və Azərbaycan hərtərəfli strateji tərəfdaşlardır. İki ölkə başçısının strateji rəhbərliyi ilə Çin-Azərbaycan münasibətləri möhkəm inkişaf dinamikasını qoruyub saxlayır, müxtəlif sahələr üzrə əməkdaşlıq davamlı şəkildə irəliləyir və xalqlarımızın rifahının yüksəldilməsinə xidmət edir”. Onun sözlərinə görə, hərbi əməkdaşlıq ikitərəfli strateji tərəfdaşlığın mühüm tərkib hissəsidir və Çin ordusu Azərbaycan Silahlı Qüvvələri ilə qarşılıqlı əlaqələri daha da dərinləşdirməyə hazırdır. Səfir əlavə edib ki, Çin Azərbaycanla birlikdə iki ölkə rəhbərləri arasında əldə olunmuş mühüm razılaşmaların həyata keçirilməsi, “Bir kəmər, bir yol” təşəbbüsü, süni intellekt sahəsində əməkdaşlıq, eləcə də regionda və dünyada sülhün və inkişafın təşviqi istiqamətində birgə fəaliyyətini davam etdirəcək.

### Çin Azərbaycanın regional rolunu qiymətləndirir

Çinin Azərbaycandakı hərbi attaşesi, polkovnik Sun Çjun isə bildirib ki, Çin Xalq Azadlıq Ordusu ölkə tarixinin taleyüklü dövründə formalaşıb və ötən illər ərzində Çinin müstəqilliyinin möhkəmləndirilməsinə, milli inkişafına və davamlı sülhün təmin olunmasına mühüm töhfələr verib: “Bu gün Çin Xalq Azadlıq Ordusu modernləşmənin yeni mərhələsinə qədəm qoyub və əsas missiyası ölkənin suverenliyini, təhlükəsizliyini və inkişaf maraqlarını qorumaqla yanaşı, regional və qlobal sülhün möhkəmləndirilməsinə töhfə verməkdir”. O qeyd edib ki, son illərdə Çin ordusu dünyanın müxtəlif ölkələrinin silahlı qüvvələri ilə əməkdaşlığı genişləndirib, BMT-nin sülhməramlı əməliyyatlarında, dəniz quldurluğuna qarşı beynəlxalq missiyalarda, humanitar yardım və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması tədbirlərində fəal iştirak edib. “Bu fəaliyyət Çinin digər ölkələrlə birlikdə ümumi təhlükəsizlik çağırışlarının həllinə töhfə vermək əzmini nümayiş etdirir”, - deyə hərbi attaşe bildirib.

Sun Çjun vurğulayıb ki, Çin ilə Azərbaycan arasında hərbi əməkdaşlıq yüksəksəviyyəli qarşılıqlı səfərlər, peşəkar dialoq və hərbi kadrların hazırlanması vasitəsilə ardıcıl inkişaf edir. “Bu mübadilə qarşılıqlı anlaşmanı daha da möhkəmləndirib və gələcək əməkdaşlıq üçün etibarlı zəmin yaradıb”, - deyə o əlavə edib.

Hərbi attaşe Azərbaycanın regional rolunu yüksək qiymətləndirərək bildirib: “Avropa ilə Asiyanın kəsişməsində yerləşən mühüm ölkə kimi Azərbaycan regional inkişaf və sabitliyə dəyərli töhfələr verir. Biz əməkdaşlığımızı daha da dərinləşdirmək, regionda və dünyada sülhə və rifaha yeni töhfələr vermək üçün Azərbaycanla birgə işləməyi səbirsizliklə gözləyirik”.

### Əlaqələrin güclənməsində Orta Dəhlizin rolu...

Ümumiyyətlə, hər iki ölkə beynəlxalq müstəvidə də fəal əməkdaşlıq edir. Azərbaycan “Vahid Çin” prinsipini birmənalı olaraq dəstəkləyir. Eyni zamanda, Çin Xalq Respublikası hər zaman Azərbaycanın ərazi bütövlüyünə qətiyyətli dəstəyini ifadə edib. Prezident İlham Əliyevin 2025-ci ilin aprel ayında Çinə dövlət səfəri çərçivəsində “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat” imzalanması isə strateji tərəfdaşlıq üçün atılan praktiki addımdır. Birgə Bəyanatda qeyd edildiyi kimi, tərəflər xalqlarının seçdiyi və milli şərtlərə uyğun olan inkişaf yolunu seçməkdə bir-birini möhkəm dəstəkləyir, hər iki ölkənin təməl maraqlarının, suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün qorunmasında bir-birinə qətiyyətli dəstək verirlər.

Azərbaycan Çinin irəli sürdüyü “Kəmər və Yol təşəbbüsünü” ilk dəstəkləyən ölkələrdən biridir və Çinlə nəqliyyat-logistikaya dair qlobal təşəbbüslər müstəvisində sıx əməkdaşlıq qurub. Ölkəmiz bu istiqamətdə ciddi praktiki layihələr həyata keçirib və “Kəmər və Yol” layihəsinin mühüm hissəsi olan Orta Dəhlizin infrastrukturunun inkişafına əhəmiyyətli investisiyalar yatırıb. Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi - Orta Dəhliz Çindən Avropaya və geriyə yüklərin çatdırılması üçün ən səmərəli və təhlükəsiz marşrutdur. Eyni zamanda, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə Çindən Türkiyəyə yük daşımalarının müddəti 1 aydan 12 günə qədər azalıb. Çindən göndərilən yüklərin Türkiyə vasitəsilə Qərbi Avropa ölkələrinə çatdırılması isə ümumilikdə cəmi 18 günə baş verir.

Bundan əlavə, Çin ilə enerji keçidi, bərpa olunan enerji sahəsində əməkdaşlıq uğurla inkişaf etdirilir. Ölkədə elektrik mühərrikli avtobusların istehsalı sahəsində Çinin “BYD Company Limited” (BYD) şirkəti ilə fəal əməkdaşlıq edilir. Həmçinin, ölkələrimizin regionları və şəhərləri arasında dostluq münasibətləri inkişaf edir. Belə ki, Bakı şəhəri ilə Sıçuan əyaləti, Gəncə şəhəri ilə Çindao şəhəri, Sumqayıt şəhəri ilə Sian və Myenyan şəhərləri, Çunçin şəhərinin Cyancin rayonu, Naxçıvan Muxtar Respublikası ilə Çunçin şəhəri, Bakı şəhərinin Xəzər rayonu ilə Quancou şəhər bələdiyyəsinin Nanşa rayonu arasında əməkdaşlıq haqqında sənədlər imzalanıb.

***Nardar BAYRAMLI***

# Bakıya dəstək, Parisə kəskin etiraz

## Fransa təhdid və diplomatik təzyiqlərlə dekolonizasiya tələbini susdurmağa çalışmaq əvəzinə, əsrlər boyu hüquqları əlindən alınmış xalqların azad seçim hüququnu tanımalıdır

**Fransanın hələ də əl çəkmək istəmədiyi müstəmləkəçilik siyasətinə qarşı növbəti etirazlar Qvadelupadan və Saint Martin adasından gəlib. Bu günlərdə Qvadelupada fəaliyyət göstərən "MIR Guadeloupe" təşkilatının prezidenti, Beynəlxalq Dekolonizasiya Cəbhəsinin katibi Joze Jan-Pyer Fransa hakimiyyətinin Dənizaşırı ərazilərlə bağlı müstəmləkəçi siyasətinə qarşı genişlənən beynəlxalq hərəkatı və dekolonizasiya çağırışlarını "daxili işlərə qarışma" kimi təqdim etmək cəhdlərinə sərt cavab verib. O, Fransa Prezidenti Emmanuel Makrona, Fransa Milli Assambleyasının deputatı Nikolas Metzdorfa və BMT-nin Dekolonizasiya üzrə Xüsusi Komitəsinə məktublar ünvanlayıb. Bakı Təşəbbüs Qrupundan (BTQ) verilən məlumatda qeyd olunub ki, məktublarda Fransa parlamentarilərinin Azərbaycanın Dənizaşırı ərazilərin dekolonizasiyasının başa çatdırılması ilə bağlı mövqeyini "müdaxilə" kimi qələmə vermələri qətiyyətlə rədd edilir. Həmçinin Fransa və Niderland tərəfindən 2 hissəyə bölünərək faktiki işğal altında saxlanılan Saint Martin adasının azadlığı uğrunda barışmaz mübarizə aparan nüfuzlu "ONESXM" təşkilatı Azərbaycana dəstək ifadə edən bəyanat yayıb. Təşkilat Fransa Milli Assambleyasının 3 deputatının Azərbaycanın və Bakı Təşəbbüs Qrupunun dekolonizasiya prosesinə dəstəyini hədəf alan ittihamlarını qətiyyətlə rədd edib. Müstəqillik hərəkatı tərəfdarları fransız parlamentarilərin Azərbaycan Prezidentinin fikirlərini "Fransanın daxili işlərinə qarışmaq" kimi qələmə vermələrinə sərt reaksiya göstəriblər.**

### Azərbaycanın beynəlxalq hüquqa, ədalət və demokratiya prinsiplərinə əsaslanan ardıcıl siyasəti

Azərbaycan beynəlxalq hüquq, ədalət və demokratiya prinsiplərinə istinad etməklə dünyada müstəmləkəçiliyin hər hansı bir formada təzahürünə qarşı ardıcıl mübarizə aparır. Paytaxtımızda sıralarında 120 dövləti birləşdirən Qoşulmama Hərəkatı (QH) çərçivəsində təsis olunan Bakı Təşəbbüs Qrupu (BTQ) Afrikada, Dənizaşırı ərazilərdə hələ də ağır müstəmləkə əsarəti altında inləyən xalqların ümid yerinə çevrilib. BTQ qısa müddətdə müstəmləkəçiliyə qarşı milli səviyyədə mübarizə aparan təşkilatların koordinasiyalı fəaliyyətini təşkil etməyə, problemləri BMT müstəvisinə çıxarmağa nail olub.

Azərbaycanın, o cümlədən də Bakı Təşəbbüs Qrupunun müstəmləkəçiliyə qarşı sistemli şəkildə mübarizə aparması hələ də sümürmə siyasətindən əl çəkməyən bəzi Qərb dövlətlərinin xoşuna gəlmir. Ölkəmiz hədəf seçilir, BTQ-yə qarşı qərəzli kampaniyalar aparılır. Burada dünyaya demokratiya dərsi keçmək cəhdlərində bulunan Fransanın canfəşanlığını xüsusi qeyd edə bilərik. Yelisey Sarayı respublikamızın azadlıq mübarizəsinə qalxan xalqlara dəstək verməsini "Fransanın daxili işlərinə qarışmaq" anlamında təqdim etməklə ölkəmizin ünvanına heç bir əsası olmayan iddialar səsləndirir və qərəzli yanaşmalar sərgiləyir. Təzadlı mənzərə yaranır: Müstəmləkəçilik keçmişin eybəcər qalığıdır. Dünya




ona "yox" deyir. Azadlıq, qardaşlıq, bərabərlik, demokratiya şüarlarını özünə deviz seçən Fransa isə axına qarşı gedir, mütərəqqi bəşəriyyətin istəyini görməzdən gəlir və bütün bunlar azmış kimi, əzilən, hüquqları tapdanan, sərvətləri talanan, milli kimliyinə qəsd edilən xalqların yanında dayanan Bakı nədə isə ittiham olunur. Məntiq haradadır? Ədalətsizliklə, milli-dini-irqi ayrı-seçkiliklə necə barışmaq olar? Heç bir halda Bakının davranışlarını "Fansanın daxili işlərinə qarışmaq" anlamında təqdim etmək doğru yanaşma deyil. Bu, rəsmi Parisə başucalığı gətirmir, Yelisey Sarayının imicinə qara kölgə salır. Müstəmləkəçiliyə qarşı mübarizə aparmaq insan haqlarını müdafiə etmək deməkdir və Bakı öz ədalətli mübarizəsindən heç vaxt geri çəkilməyəcək. Təbii ki, burada azadlıq mübarizəsinə qalxan xalqların mövqeyi əsasdır. Qvadelupadan BMT-yə ünvanlanan məktubun məzmunundan da göründüyü kimi, onlar mövqelərində və seçimlərində qətidirlər - səslərinə səs verən Bakını dəstəkləyir, zülmü, əsarəti davam etdirmək niyyətində olan Parisə isə kəskin etirazlarını bildirirlər. Məktubda vurğulanır ki, hər hansı dövlətin müstəmləkə idarəçiliyi altında olan ərazilərin statusunu beynəlxalq hüquq kontekstində gündəmə gətirməsi Fransanın daxili işlərinə qarışmaq deyil. Əksinə bu, BMT üzvlərinin müstəmləkəçiliyin bütün formalarının aradan qaldırılması ilə bağlı üzərinə götürdüyü kollektiv öhdəliyin ifadəsidir.

### Yelisey Sarayına, Milli Assambleyaya tarixə dair ciddi xatırlatmalar

Fransanın ağır müstəmləkəçilik siyasətinin əsası 500 il bundan əvvəl qoyulub. Əslində, dünya bu gün Fransanın yüzilliklər ərzində nəzarətində saxladığı coğrafiyalarda - Afrikada, Dənizaşırı ərazilərdə mədəni izlər buraxdığına, bu yerlərə tərəqqi gətirdiyinə, xalqların siyasi, milli-mədəni muxtariyyətinə dəstək göstərdiyinə, iqtisadi inkişafa töhfə verdiyinə şahidlik etməli idi. Beş yüz il ötəndən sonra müstəmləkə ərazilərində bunların heç biri yoxdur. Fransa bu yerlərə yaxşı heç nə gətirməyib. Yalnız sümürməçiliklə, sərvətləri talamaqla məşğul olub, davamlı şəkildə xalqların milli kimliyinə qəsd etməyə çalışıb.

Yelisey Sarayının bu kimi bəd əməlləri unudulmur və heç vaxt da unudulmayacaq. Mühüm məqamlardan biri də ondan ibarətdir ki, rəsmi Paris müstəmləkəçilik siyasəti ilə bağlı beynəlxalq qınaqları da qəbul etmək istəmir. Qvadelupalı siyasi fəal rəsmi Parisə xatırladır ki, Yeni Kaledoniya və Fransa Polineziyası bu gün də BMT-nin dekolonizasiya edilməli olan ərazilər siyahısındadır. Buna görə də həmin ərazilərin müstəmləkə statusunun beynəlxalq səviyyədə müzakirə edilməsini "xarici müdaxilə" adlandırmaq hüquqi və siyasi baxımdan əsassızdır. Bu ərazilərin vəziyyəti hər il BMT-nin C-24 Komitəsi və Baş Assambleyanın Dördüncü Komitəsi çərçivəsində nəzərdən keçirilir.

Məktublarda Fransanın Qvadelupa, Martinik, Reyunyon və Fransız Qvianasının guya könüllü şəkildə Fransaya birləşməsi barədə iddiaları da ifşa olunur. Bildirilir ki, 1946-cı




ildə qəbul edilən departamentləşdirmə qanunu həmin xalqların iştirakı olmadan, heç bir referendum və birbaşa ümumxalq səsverməsi keçirilmədən Fransa parlamenti tərəfindən birtərəfli qaydada qəbul edilib. Bir il sonra bu ərazilərin BMT-nin dekolonizasiya edilməli olan ərazilər siyahısından çıxarılması da rəsmi Parisin birtərəfli qərarı əsasında həyata keçirilib. Beləliklə, Fransanın istinad etdiyi "azad seçim" heç vaxt həmin xalqların iradəsi ilə təsdiqlənməyib.

J.Jan-Pyer Fransanın hüquqi bərabərlik haqqında bəyanatlarının Dənizaşırı ərazilərdəki real vəziyyətlə ziddiyyət təşkil etdiyini də konkret faktlarla göstərir. Rəsmi statistikaya əsasən, işsizlik səviyyəsi Qvadelupa və Martinikdə metropol Fransa ilə müqayisədə yüksək olaraq qalır. Antil adalarında xlordekon adlı zəhərli pestisidlə çirklənmənin yetkin əhalinin 80 faizindən çoxuna təsir etdiyi, bu hadisənin Fransa məhkəmələri tərəfindən belə "sanitar qalmaqal" kimi tanındığı vurğulanır.

BMT-nin C-24 Komitəsinə ünvanlanan məktubda Yeni Kaledoniya və Fransız Polineziyasına BMT missiyasının göndərilməsi və müstəqillik seçiminin verilməsi tələb olunur. Eyni zamanda, Fransadan Qvadelupa, Martinik, Reyunyon və Fransız Qvianasının 1947-ci ildə hansı hüquqi əsaslarla BMT siyahısından çıxarıldığı barədə hesabat istənilməsi, bu xalqların beynəlxalq hüquq baxımından ayrıca xalq statusunun tanınması və öz müqəddəratlarını təyin etmək üçün referendumların keçirilməsi təklif edilir.

### Fransa beynəlxalq öhdəliklərini yerinə yetirməli, xalqların "azad seçim" hüquqlarını tanımalıdır

Fransa BMT-nin əksər konvensiyalarına qoşulan dövlətdir. Ancaq belə görünür ki, BMT konvensiyalarına qoşulmaq rəsmi Paris üçün formal səciyyə daşıyır, çünki reallıqda bu ölkə beynəlxalq hüquqa hörmətlə yanaşmır. Qvadelupadan E.Makrona göndərilən məktubda Parisə açıq çağırış edilir: dekolonizasiya hüququnun legitimliyini mübahisələndirmək əvəzinə, Fransa öz beynəlxalq öhdəliklərini yerinə yetirməlidir. Bunun üçün Dənizaşırı ərazilərin sakinlərinin ayrıca xalq statusu tanınmalı, Yeni Kaledoniya və Fransız Polineziyasında BMT-nin himayəsi altında real öz müqəddəratını təyinetmə prosesi başlanmalı, Qvadelupa, Martinik, Reyunyon və Fransız Qvianasında isə 1946-cı ildən bəri keçirilməyən referendumlar nəhayət təşkil edilməlidir.

"Qvadelupa xalqının səsi Azərbaycanın qaldırdığı dekolonizasiya gündəliyi və Bakı Təşəbbüs Qrupunun formalaşdırdığı beynəlxalq platforma vasitəsilə daha geniş auditoriyaya çatır. BTQ müxtəlif qitələrdə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən xalqların ayrı-ayrı mübarizələrini vahid beynəlxalq siyasi və hüquqi gündəlik ətrafında birləşdirir, onların mövqelərinin BMT səviyyəsinə daşımasına imkan yaradır", - deyə məktublarda vurğulanır. Qvadelupadan ünvanlanan bu məktublar rəsmi Parisə verilən növbəti aydın cavabdır: müstəmləkəçilik "daxili iş" adı altında gizlədilə bilməz. Fransa təhdid və diplomatik təzyiqlərlə dekolonizasiya tələbini susdurmaq əvəzinə, əsrlər boyu hüquqları əlindən alınmış xalqların azad seçim, müstəqillik və öz müqəddəratını təyinetmə hüququnu tanımalıdır.

### Saint Martin adasından Parisə ünvanlanan aydın mesaj

Saint Martin adasını təmsil edən "ONESXM" təşkilatının yaydığı bəyanatda vurğulanıb ki, müstəmləkəçilik və xalqların öz müqəddəratını təyin etməsi Fransanın daxili işi sayıla bilməz. Bu məsələlər beynəlxalq hüquq normaları, BMT Nizamnaməsinin 1-ci maddəsi (xalqların bərabər hüquqluluğu və öz müqəddəratını təyin etməsi prinsipi) və BMT Baş Assambleyasının 1960-cı ildə qəbul etdiyi müstəmləkə idarəçiliyinə son qoyulmasını tələb edən 1514 saylı qətnaməsi ("Müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsi haqqında Bəyannamə") ilə tənzimlənir. Bu baxımdan, assosiasiya müstəmləkə idarəçiliyindən əziyyət çəkən xalqların səsini dünyaya çatdıran Bakı Təşəbbüs Qrupunun missiyasını tamamilə legitim, qanuni və təqdirəlayiq hesab edir.

Yeni Kaledoniya və Fransız Polineziyası kimi bölgələrin hələ də BMT-nin dekolonizasiya edilməli olan ərazilər siyahısında qaldığını xatırladan "ONESXM" təşkilatı rəsmi Parisin "fransız təbəəliyi" adı altında apardığı siyasətin real bərabərsizliyi və yerli xalqların fundamental hüquqlardan məhrum edilməsini gizlədə bilmədiyini vurğulayaraq, Saint Martində xalqa tam müstəqillik üçün "bəli", yaxud "xeyr" seçimi veriləcək rəsmi referendumun dərhal təşkil olunmasını tələb edir.

"ONESXM" Assosiasiyasının bəyanatı bir daha göstərir ki, Parisin təhdid, təzyiq və "daxili işlərə qarışma" bəhanəsi dekolonizasiya tələblərini susdurmağa qadir deyil. Karib hövzəsindən Sakit okeanadək Fransa müstəmləkəçiliyinə qarşı mübarizə aparan xalqlar öz səslərini məhz Bakı Təşəbbüs Qrupunun yaratdığı beynəlxalq platforma vasitəsilə daha geniş auditoriyaya çatdırır, mövqelərini uzlaşdırır və qlobal həmrəylik nümayiş etdirirlər. Bakı Təşəbbüs Qrupu bu mübarizəni ayrı-ayrı ərazilərin lokal etirazı çərçivəsindən çıxararaq beynəlxalq dekolonizasiya gündəliyinin mühüm istiqamətlərindən birinə çevirir. "ONESXM"in mövqeyi Parisə ünvanlanan aydın mesajdır: Müstəmləkəçilik dövrü başa çatmalı, xalqların azad seçim və öz müqəddəratını təyinetmə hüququ isə heç bir siyasi təzyiq, təhdid və manipulyasiya ilə əngəllənməməlidir.

*Mübariz ABDULLAYEV*

# Yeni maliyyə alətinə keçid

## Mərkəzi Bank tərəfindən qiymətli kağızların icarəyə verilməsi dövrü başlayır

**Azərbaycan Mərkəzi Bankı özünün valyuta ehtiyatlarından daha səmərəli istifadə etmək və əlavə qazanc götürmək məqsədilə yeni maliyyə alətindən istifadə etməyə başlayıb. Söhbət qurumun portfelində olan borc qiymətli kağızlarının qısamüddətli əsasda icarəyə verilməsindən gedir. Proqram çərçivəsində 1 milyard ABŞ dollarınadək qiymətli kağız beynəlxalq maliyyə bazarlarında müvəqqəti istifadəyə verilə bilər. Əməliyyatları Mərkəzi Bankın qlobal kastodian bankı olan "Bank of New York Mellon" (BNY) həyata keçirəcək.**

### "Qiymətli kağızın icarəyə verilməsi" anlayışı özündə nəyi ehtiva edir və əməliyyat necə həyata keçirilir?

"Qiymətli kağızın icarəyə verilməsi" ifadəsi ilk baxışda qeyri-adi səslənir. Axı biz öyrəşmişik ki, "icarə" sözü hansısa bir əmlakın müvəqqəti qaydada başqasının istifadəsinə verilməsini bildirir. Ancaq qiymətli kağızın icarəyə verilməsi ilə əmlakın icarəyə verilməsi arasında mahiyyət etibarı ilə ciddi fərq yoxdur. Hər iki halda söhbət sənə aid olanın idarəçilik hüququnun müvəqqəti qaydada başqasına verilməsindən gedir. Bəli, əmlak mülkiyyətinin icarəyə verilməsi praktikası daha geniş yayılıb. İndi isə vəsaitlərin, qiymətli kağızların icarəyə verilməsi dövrü başlayır. Daha dəqiq desək, Mərkəzi Bank bu praktikanı respublikamıza gətirir. Əslində, bu əməliyyat gündəlik həyatda əmlakın icarəyə verilməsinə müəyyən qədər bənzəyir. Mərkəzi Bank sahib olduğu istiqrazları satmır və həmin aktivlər üzərində mülkiyyət hüququnu itirmir. Qiymətli kağızlar müəyyən müddətə başqa maliyyə qurumunun istifadəsinə verilir, həmin qurum isə bunun müqabilində haqq ödəyir və müddət başa çatdıqda qiymətli kağızları geri qaytarır.

Mərkəzi Bankın açıqlamasına görə, qurumun valyuta ehtiyatları yalnız nağd ABŞ dolları, avro və ya digər valyutalardan ibarət deyil. Bu ehtiyatların bir hissəsi xarici dövlətlərin, beynəlxalq təşkilatların və yüksək etibarlılığa malik şirkətlərin buraxdığı istiqrazlara yerləşdirilir. Belə qiymətli kağızlar adətən təhlükəsiz, likvid və gəlir gətirən aktivlər hesab olunur.

Yeni mexanizmə əsasən, Mərkəzi Bank portfelində saxladığı istiqrazların bir hissəsini qısamüddətli dövr üçün beynəlxalq banklara, brokerlərə və digər maliyyə institutlarına icarəyə verə bilər. İcarəyə götürən tərəf qiymətli kağızdan bazar əməliyyatlarında istifadə edir və əvəzində Mərkəzi Banka icarə haqqı ödəyir.

Bu zaman qarşı tərəf adətən pul vəsaiti və ya yüksəkkeyfiyyətli başqa qiymətli kağızlar formasında təminat təqdim edir. Təminatın məqsədi Mərkəzi Bankı mümkün itkilərdən qorumaqdır. Əgər qiymətli kağızı götürən təşkilat onu vaxtında geri qaytara bilməzsə, təqdim olunmuş təminatdan istifadə edilə bilər. Beynəlxalq təcrübədə qiymətli kağızların icarəsi əsasən qısamüddətli olur və girovla təmin edilir.

Sadə nümunə ilə izah etsək, məsələn: Mərkəzi Bankın portfelində 100 milyon ABŞ dolları dəyərində xarici dövlət istiqrazının olduğunu düşünək. Bu istiqrazlar sadəcə portfeldə saxlanıldıqda Mərkəzi Bank onların faiz gəlirini əldə edir. İstiqrazların müəyyən hissəsi qısa müddətə icarəyə verildikdə isə əsas faiz gəlirinə əlavə olaraq icarə haqqı da qazanılır. Müddət başa çatdıqdan sonra istiqrazlar yenidən Mərkəzi Bankın portfelinə qaytarılır.

Beynəlxalq maliyyə bazarlarında banklar, brokerlər və investisiya fondları müxtəlif səbəblərlə qiymətli kağızlara qısamüddətli ehtiyac duya bilirlər. Məsələn, maliyyə qurumu əvvəl bağladığı əməliyyat üzrə qiymətli kağızı qarşı tərəfə çatdırmalı, bazarda alqı-satqı prosesinin fasiləsizliyini təmin etməli və ya müəyyən investisiya strategiyasını həyata keçirməli ola bilər.

Belə hallarda qurum qiymətli kağızı bazardan birdəfəlik almaq əvəzinə, müəyyən müddətə icarəyə götürür. İcarə müddətində qiymətli kağızdan istifadə edir, razılaşdırılmış haqqı ödəyir və sonra onu sahibinə qaytarır. Qiymətli kağızların borc götürülməsi bazar əməliyyatlarının tamamlanması, qısa satışların təmin edilməsi və müxtəlif ticarət strategiyalarının həyata keçirilməsi üçün istifadə oluna bilər.

### Mərkəzi Bank bu əməliyyatdan nə qazanacaq və yaxud ölkənin valyuta ehtiyatları azalacaqmı?



Qiymətli kağızların icarəyə verilməsinə keçid edilməsində əsas məqsəd valyuta ehtiyatlarının gəlirliliyini artırmaqdır. Mərkəzi Bankın portfelindəki qiymətli kağızlar əvvəl də faiz gəliri gətirirdi. İcarə mexanizminin tətbiqi həmin aktivləri satmadan əlavə gəlir əldə etməyə imkan verir.

Başqa sözlə, Mərkəzi Bank mövcud ehtiyatlardan daha səmərəli istifadə etməyə çalışır. İndiyədək yalnız saxlanılan aktivlərin bir hissəsi bundan sonra təhlükəsizlik və likvidlik tələbləri qorunmaqla əlavə gəlir mənbəyinə çevriləcək. Mərkəzi Bank da açıqlamasında proqramın valyuta ehtiyatlarının təhlükəsizliyi və likvidliyi qorunmaqla əlavə gəlir əldə edilməsinə xidmət etdiyini bildirib.

Əldə olunan gəlirin həcmi qiymətli kağızlara olan tələbdən, icarə müddətindən, bazar faizlərindən və konkret istiqrazın xüsusiyyətlərindən asılı olacaq. Buna görə proqramın ümumi həcminin 1 milyard ABŞ dollarınadək olması Mərkəzi Bankın bu qədər gəlir əldə edəcəyi demək deyil. Bu rəqəm yalnız icarəyə veriləbiləcək qiymətli kağızların maksimum ümumi dəyərini göstərir. Icarədən gəlirlərin həcmi isə mövcud bazar şərtləri əsasında müəyyənləşəcək. Ancaq bəri başdan bəllidir ki, burada faizlərdən başqa əlavə likvidlik təmin olunacaq, anacaq gəlirin həcmi icarəyə verilən qiymətli kağızların ümumi dəyərini üstələməyəcək.

Burada başqa bir sual da yaranır: Qiymətli kağızların icarəyə verilməsi valyuta ehtiyatlarını azaldacaqmı və ümumiyyəylə belə bir risk varmı? Sualın cavabı olaraq bankın açıqlamasında vurğulanır ki, qiymətli kağızların icarəyə verilməsi valyuta ehtiyatlarının azalması anlamına gəlmir. Mərkəzi Bank həmin aktivlərin sahibi olaraq qalır və müqavilənin şərtlərinə uyğun olaraq onların geri qaytarılmasını tələb edir.

Buna görə əməliyyat nəticəsində ölkənin valyuta ehtiyatlarının avtomatik şəkildə azalmasından danışmaq düzgün olmaz. Əksinə, məqsəd ehtiyatların tərkibində olan aktivlərdən əlavə gəlir əldə etməkdir. Lakin qiymətli kağızlar müvəqqəti olaraq başqa bazar iştirakçısının istifadəsinə verildiyi üçün əməliyyatın təhlükəsizliyi düzgün seçilmiş təminatdan, tərəfdaşların maliyyə etibarlılığından və risklərin gündəlik idarə edilməsindən asılıdır.

### Bazar şərtlərinin dəyişməsinin müəyyən risklər yaratmaq ehtimalı var

Qiymətli kağızların icarəsi əlavə gəlir gətirsə də, tam risksiz əməliyyat deyil. Əsas risklərdən biri qiymətli kağızı icarəyə götürən tərəfin öhdəliyini yerinə yetirməməsidir. Yəni qarşı tərəf müflis ola və ya qiymətli kağızı vaxtında qaytara bilməyə bilər.

Digər risk təqdim olunan təminatın bazar dəyərinin azalmasıdır. Məsələn, qarşı tərəfin verdiyi girovun qiyməti kəskin aşağı düşərsə, həmin təminat qaytarılmayan qiymətli kağızın bütün dəyərini ödəməyə bilər. Nağd təminatın başqa maliyyə alətlərinə yerləşdirilməsi də ayrıca investisiya riski yarada bilər. ABŞ Qiymətli Kağızlar və Birja Komissiyasının məlumatına görə, qiymətli kağızların icarəsində borcalanın aktivləri geri qaytarmaması və nağd təminatın yenidən investisiyası ilə bağlı risklər mövcuddur.

Bu riskləri azaltmaq üçün borcalanlar əvvəlcədən yoxlanılır, əməliyyatlar girovla təmin olunur, qiymətli kağızlarla təminatın bazar dəyəri mütəmadi müqayisə edilir və zərurət yarandıqda əlavə təminat tələb olunur. Proqramın "Bank of New York Mellon" kimi qlobal kastodian və qiymətli kağızların icarəsi sahəsində fəaliyyət göstərən böyük maliyyə qurumu vasitəsilə idarə olunması əməliyyat nəzarətinin peşəkar səviyyədə qurulmasına xidmət edir. BNY öz qiymətli kağızların icarəsi proqramında borcalanların seçilməsi, təminatın qəbul edilməsi, gəlirlərin hesablanması və qiymətli kağızların geri qaytarılması proseslərini idarə etdiyini bildirir.

### Gözlənilən nəticələr - bu qərar vətəndaşlara və manatın məzənnəsinə necə təsir edə bilər?

Yaranan suallardan biri də yeni maliyyə alətinə keçid edilməsindən gözlənilən nəyticələrlə bağlıdır. Qiymətli kağızların icarəyə verilməsi vətəndaşlara və manatın məzənnəsinə necə təsir edə bilər? Bu əməliyyatın əhalinin bank kreditlərinə, əmanətlərinə, gündəlik ödənişlərinə və ya manatın məzənnəsinə birbaşa və dərhal təsir göstərməsi gözlənilmir. Çünki söhbət ölkə daxilində pul kütləsinin artırılmasından və ya faiz dərəcələrinin dəyişdirilməsindən deyil, Mərkəzi Bankın valyuta ehtiyatlarının idarə edilməsindən gedir.

Dolayı təsir isə uzunmüddətli dövrdə özünü göstərə bilər. Valyuta ehtiyatlarının daha gəlirli və səmərəli idarə olunması Mərkəzi Bankın maliyyə imkanlarını, ehtiyatların dayanıqlığını və xarici iqtisadi risklərə qarşı müdafiə qabiliyyətini gücləndirə bilər. Bununla belə, əldə ediləcək əlavə gəlirin həcmi və proqramın ümumi nəticələri açıqlanmadığı üçün indiki mərhələdə onun maliyyə təsirini dəqiq rəqəmlərlə qiymətləndirmək mümkün deyil.

Mərkəzi Bankın qiymətli kağızların icarəyə verilməsi əməliyyatına başlaması valyuta ehtiyatlarının daha aktiv və çevik idarə olunmasına keçid kimi qiymətləndirilə bilər. Bu mexanizm Mərkəzi Banka sahib olduğu borc qiymətli kağızlarını satmadan, onları qısamüddətli istifadəyə verməklə əlavə gəlir əldə etmək imkanı yaradır. Əməliyyatın əsas üstünlüyü mövcud aktivlərin gəlirliliyinin artırılmasıdır. Bu, beynəlxalq maliyyə bazarlarında geniş tətbiq olunan ehtiyatların idarə edilməsi üsullarından biridir.

*Mübariz FEYİZLİ*

# Ekoloji şüurdan gələcəyin fəlsəfəsinə

## IDEA Hərəkatının yaranmasından 15 il ötür




XXI əsr bəşəriyyət tarixində elə bir mərhələdir ki, insan ilk dəfə inkişafın sərhədləri haqqında ciddi düşünməyə başlayıb. Uzun illər iqtisadi artım, sənayeləşmə, urbanizasiya və texnoloji tərəqqi müasir sivilizasiyanın əsas nailiyyətləri hesab edilirdi. Lakin zaman keçdikcə aydın oldu ki, nəzarətsiz istehsal, təbii ehtiyatlardan qeyri-səmərəli istifadə, atmosferə buraxılan istixana qazlarının artması, meşələrin sürətlə məhv edilməsi, biomüxtəlifliyin azalması və şəhərlərin plansız inkişafı bəşəriyyəti yeni təhlükələrlə üz-üzə qoyur. İqlim dəyişikliyi artıq yalnız alimlərin müzakirə etdiyi nəzəri problem deyil, bu gün onun nəticələri dünyanın bütün qitələrində müşahidə olunur. Quraqlıqlar, daşqınlar, meşə yanğınları, su qıtlığı və ekstremal hava hadisələri milyonlarla insanın həyatına təsir göstərir.

Məhz buna görə beynəlxalq təşkilatlar son otuz ildə inkişaf anlayışına tamamilə yeni məzmun verməyə başlayıb. 1987-ci ildə BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Dünya Komissiyasının hazırladığı və Norveçin keçmiş Baş naziri Gro Harlem Brundtlandın rəhbərliyi ilə təqdim olunan məşhur "Our Common Future" ("Ortaq gələcəyimiz") hesabatı "davamlı inkişaf" anlayışını beynəlxalq siyasi leksikona gətirdi. Həmin sənəddə davamlı inkişaf gələcək nəsillərin imkanlarını məhdudlaşdırmadan bugünkü insanların tələbatının ödənilməsi kimi müəyyən edilirdi. Bu konsepsiya sonrakı onilliklərdə qlobal inkişaf siyasətinin əsas fəlsəfəsinə çevrildi.

1992-ci ildə Rio-de-Janeyroda keçirilən BMT-nin Yer Sammiti, daha sonra Kioto Protokolu, Paris İqlim Sazişi və 2030 Dayanıqlı İnkişaf Məqsədləri göstərdi ki, ekologiya artıq təkcə təbiətin qorunması məsələsi deyil, həm də iqtisadiyyat, enerji təhlükəsizliyi, səhiyyə, ərzaq təminatı, şəhərsalma, sosial ədalət və milli təhlükəsizliklə birbaşa bağlı olan strateji istiqamətdir.

Dünyanın tanınmış iqtisadçılarından biri, Kolumbiya Universitetinin professoru Ceffri Saks (Jeffrey Sachs) dəfələrlə vurğulayıb ki, XXI əsrdə ölkələrin uğuru yalnız iqtisadi artım templəri ilə yox, insan kapitalının inkişafı, ekoloji davamlılıq və sosial inklüzivlik göstəriciləri ilə qiymətləndiriləcək. Onun fikrincə, iqtisadi inkişaf ilə ekoloji məsuliyyət arasında tarazlıq yarada bilməyən dövlət uzunmüddətli perspektivdə ciddi sosial və iqtisadi problemlərlə üzləşəcək.

İsveçli alim Yohan Rokström (Johan Rockström) isə "Planetary Boundaries" (Planetar sərhədlər) konsepsiyası ilə sübut edir ki, Yer kürəsinin ekoloji imkanlarının da müəyyən həddi var. Bu hədlərin aşılması yalnız təbiət üçün yox, insan sivilizasiyasının davamlı inkişafı üçün də ciddi risklər yaradır. Onun araşdırmaları bu gün BMT, Dünya Bankı, OECD və bir çox beynəlxalq təşkilatlar tərəfindən strateji qərarların hazırlanmasında istifadə olunur.

Britaniyalı iqtisadçı Keyt Rəvort (Kate Raworth) isə məşhur "Donut Economics" konsepsiyasında iqtisadi inkişafın yalnız ÜDM artımı ilə ölçülməsinin kifayət etmədiyini əsaslandırır. O hesab edir ki, iqtisadiyyat insanların rifahını yüksəltməklə yanaşı planetin ekoloji imkanlarını da aşmamalıdır. Bu yanaşma son illər "yaşıl iqtisadiyyat" və "dairəvi iqtisadiyyat" modellərinin geniş yayılmasına mühüm təsir göstərib.







BMT-nin Ətraf Mühit Proqramı (UNEP), UNESCO, FAO, IPCC və digər beynəlxalq qurumların hesabatlarında da eyni fikir xüsusi vurğulanır: gələcəyin inkişaf modeli insan, təbiət və iqtisadiyyat arasında tarazlıq üzərində qurulmalıdır. Məhz buna görə müasir dövlətlər ekoloji siyasəti yalnız ətraf mühitin mühafizəsi kimi yox, milli inkişaf strategiyasının ayrılmaz hissəsi kimi qəbul edir.

Bu qlobal dəyişikliklər Azərbaycandan da yan keçməyib. Son illər ölkəmiz ekoloji diplomatiya, yaşıl enerji, dayanıqlı şəhərsalma və iqlim gündəliyi sahəsində beynəlxalq səviyyədə daha fəal rol oynamağa başlayıb. Azərbaycanın COP29-a ev sahibliyi etməsi, daha sonra BMT-nin Dünya Şəhərsalma Forumunun-WUF13-ün Bakıda keçirilməsi ölkəmizin artıq yalnız regional deyil, qlobal inkişaf platformalarının fəal iştirakçısına çevrildiyini nümayiş etdirdi. Rəsmi məlumatlara görə, WUF13 təxminən 60 min iştirakçı ilə Forum tarixinin ən böyük sessiyası oldu və yekun sənədlərdə Bakının təşəbbüsləri, o cümlədən "Baku Call to Action" xüsusi yer aldı. Azərbaycanın münaqişədən sonrakı şəhərsalma və bərpa təcrübəsi də beynəlxalq müzakirələrdə nümunə kimi təqdim edildi.

BMT-nin Azərbaycandakı nümayəndəliyi WUF13-ə hazırlıq dövründə bu forumun ölkə üçün COP29-un yaratdığı beynəlxalq dinamikanın davamı olduğunu, Azərbaycanın isə dayanıqlı şəhərsalmanı milli prioritet kimi müəyyən etdiyini xüsusi vurğulamışdı.

Lakin Azərbaycanın ekoloji düşüncə tarixində bundan da əvvəl baş vermiş mühüm hadisə var. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə hələ 2011-ci ildə yaradılmış IDEA - International Dialogue for Environmental Action İctimai Birliyi ölkədə ekoloji maarifləndirmənin yeni mərhələyə yüksəltdi. IDEA cəmiyyətə yalnız ağac əkməyi və ya təbiəti qorumağı öyrətmədi, ekoloji məsuliyyəti vətəndaş məsuliyyəti, sosial həmrəylik və gələcək nəsillər qarşısında mənəvi öhdəlik kimi təqdim etdi. Məhz bu yanaşma sonrakı illərdə Azərbaycanın ekoloji siyasətinin, yaşıl inkişaf strategiyasının və insan kapitalına əsaslanan yeni inkişaf modelinin formalaşmasına mühüm ideya bazası yaratdı.

**Ekoloji təşəbbüsdən milli inkişaf məfkurəsinə doğru**

Müasir dövrdə inkişafın əsas meyarlarından biri dövlətin təbii sərvətlərinin həcmi deyil, cəmiyyətin formalaşdırdığı dəyərlər sistemidir. Təbii ehtiyatlar zamanla tükənə bilər, iqtisadi göstəricilər dəyişə bilər, texnologiyalar köhnələ bilər, lakin insan kapitalına, elmi biliklərə, ekoloji məsuliyyətə və ictimai həmrəyliyə əsaslanan inkişaf modeli uzunmüddətli və davamlı tərəqqinin ən etibarlı təminatıdır. Məhz buna görə XXI əsrdə dünyanın inkişaf etmiş ölkələri ekoloji siyasəti dövlət idarəçiliyinin, milli təhlükəsizliyin və strateji planlaşdırmanın ayrılmaz elementi kimi qəbul edir.

Bu yanaşmanın nəzəri əsasları son illər dünya elmi tərəfindən daha da zənginləşdirilib. Nobel mükafatı laureatı Elinor Ostrom təbii ehtiyatların qorunmasının yalnız dövlətin deyil, cəmiyyətin bütün üzvlərinin birgə məsuliyyəti olduğunu elmi şəkildə əsaslandırıb. Onun fikrincə, davamlı inkişaf təkcə qanunlarla yox, insanların davranış mədəniyyəti, ictimai etimad və kollektiv məsuliyyət hissi ilə mümkündür. Bu yanaşma sonrakı dövrdə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində də əsas prinsiplərdən birinə çevrilib.

Məhz bu qlobal tendensiyalar fonunda Leyla Əliyevanın təşəbbüsü ilə yaradılmış IDEA hərəkatı qısa müddət ərzində ölkənin ən nüfuzlu ekoloji platformasına çevrildi. Hərəkatın uğurunun sirri yalnız həyata keçirdiyi layihələrin miqyasında deyildi, ekologiyanı cəmiyyətin həyat tərzinə, düşüncə tərzinə və gələcəyə baxışına çevirməsində idi.

İlk illərdə həyata keçirilən ağacəkmə kampaniyaları, biomüxtəlifliyin qorunmasına həsr olunmuş layihələr, Xəzər dənizinin ekoloji vəziyyətinə diqqətin artırılması, nadir heyvan növlərinin mühafizəsi, plastik tullantılarla mübarizə və ekoloji maarifləndirmə proqramları cəmiyyət tərəfindən böyük maraqla qarşılandı. Minlərlə gənc könüllü bu təşəbbüslərə qoşuldu, məktəblərdə, ali təhsil müəssisələrində və müxtəlif dövlət qurumlarında ekoloji maarifləndirmə tədbirləri keçirildi. İnsanlar tədricən dərk etməyə başladılar ki, ətraf mühitə münasibət əslində insanın öz gələcəyinə münasibətidir.

Məşhur amerikalı bioloq və yazıçı Reyçel Karson (Rachel Carson) hələ ötən əsrin ortalarında yazırdı: "Təbiətdə heç nə təkbaşına mövcud deyil, hər şey bir-birinə bağlıdır". Bu fikir bu gün də aktuallığını qoruyur. Ətraf mühitdə baş verən hər bir dəyişiklik sənayeyə, kənd təsərrüfatına, səhiyyəyə, demoqrafik proseslərə və hətta dövlətlərin təhlükəsizlik siyasətinə təsir göstərir. Məhz buna görə IDEA-nın təbliğ etdiyi ekoloji məsuliyyət anlayışı zaman keçdikcə daha geniş sosial məna daşımağa başladı. Bu mərhələdə Azərbaycanda dövlət siyasəti ilə ictimai təşəbbüslər arasında uğurlu sinerji formalaşdı. Prezident İlham Əliyevin rəhbərliyi altında qəbul olunan yaşıl inkişaf strategiyası, bərpa olunan enerji layihələri, işğaldan azad olunmuş ərazilərin "yaşıl enerji zonası" elan edilməsi, ekoloji təhlükəsizlik sahəsində həyata keçirilən islahatlar IDEA Hərəkatının təbliğ etdiyi dəyərlərlə üst-üstə düşürdü. Beləliklə, ictimai təşəbbüslə dövlət siyasəti bir-birini tamamlayan vahid inkişaf modelinə çevrildi.

Bu modelin mühüm xüsusiyyətlərindən biri də ali təhsil müəssisələrinin prosesə fəal şəkildə cəlb olunması idi. Çünki davamlı inkişaf yalnız hüquqi sənədlərlə və ya inzibati qərarlarla təmin edilə bilməz, bunun üçün yeni düşüncəyə malik mütəxəssislər hazırlanmalıdır. Bu məsələdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası xüsusi rol oynayır. Akademiyada yaradılmış IDEA Resurs Mərkəzi ekoloji maarifləndirmənin elmi və akademik əsaslar üzərində inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Burada təşkil olunan seminarlar, elmi diskussiyalar tələbələrə ekoloji düşüncə ilə dövlət idarəçiliyi arasında qarşılıqlı əlaqəni daha dərindən anlamağa imkan yaradır. Gələcəyin dövlət qulluqçuları artıq ekologiyanı yalnız təbiətin qorunması kimi yox, strateji planlaşdırma, şəhərsalma, iqtisadi inkişaf, enerji siyasəti və milli təhlükəsizlik məsələlərinin tərkib hissəsi kimi öyrənirlər.

Akademiyada aparılan fundamental elmi tədqiqatlar nəticəsində insan kapitalının inkişafı, inklüziv inkişaf, davamlı inkişafın idarə edilməsi, ekoloji sivilizasiya (EcoCivil) və innovasiya əsaslı dövlət idarəçiliyi istiqamətlərində yeni elmi yanaşmalar formalaşdırılıb. Beynəlxalq elmi ədəbiyyatda ekoloji, iqtisadi, sosial və idarəetmə komponentlərini vahid sistem kimi birləşdirən ekoloji sivilizasiya konsepsiyası bu elmi tədqiqatların əsas istiqamətlərindən biri kimi tanınır. Həmin istiqamətdə aparılan araşdırmalar BMT-nin müxtəlif qurumları, beynəlxalq maliyyə institutları və inkişaf təşkilatları ilə əməkdaşlıq çərçivəsində uzun illər ərzində praktik tətbiqini tapıb.

Akademiyada qazanılmış mühüm elmi nailiyyətlərdən biri də inklüziv inkişafın idarə edilməsinə həsr olunmuş dünyanın ilk baza dərsliklərinin hazırlanmasıdır. 2018-ci ildə Azərbaycan və rus dillərində, 2019-cu ildə isə ingilis dilində nəşr edilmiş "İnklüziv inkişafın idarə edilməsinin əsasları" dərsliyi bu sahədə yeni elmi məktəbin formalaşmasına əhəmiyyətli töhfə verib. Bununla yanaşı, "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları", "Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları", "İnsan inkişafının əsasları" və digər fundamental dərsliklər davamlı inkişaf, ekoloji sivilizasiya və insan kapitalının idarə olunması istiqamətlərində ilk sistemli tədris vəsaitləri sırasında yer alır. Bu elmi irs Akademiyanın tədris prosesinə inteqrasiya edilib. İdarəçilik akademiyasında inklüziv inkişaf, davamlı inkişafın idarə edilməsi, ekoloji sivilizasiya, insan kapitalının inkişafı və müasir dövlət idarəçiliyi istiqamətləri bakalavriatura, magistratura və doktorantura pillələrində müasir beynəlxalq yanaşmalar əsasında tədris olunur. Bununla yanaşı, Akademiyada həyata keçirilən elmi tədqiqatlar, beynəlxalq əməkdaşlıq proqramları gələcəyin dövlət qulluqçularında ekoloji məsuliyyət, strateji idarəetmə bacarıqları və insan mərkəzli idarəetmə fəlsəfəsinin formalaşdırılmasına xidmət edir. Son illər dünya universitetlərində geniş tətbiq olunan Green Campus, ESG (Environmental, Social and Governance), Net Zero University, Climate Literacy və Living Labs kimi yanaşmalar göstərir ki, ali təhsil müəssisələri artıq yalnız bilik ötürən mərkəzlər deyil, həm də cəmiyyətin davamlı inkişafının aparıcı qüvvəsidir. Dövlət İdarəçilik Akademiyasında ekoloji mövzuların idarəetmə elmi, dövlət siyasəti və insan kapitalı ilə əlaqələndirilməsi də məhz bu müasir beynəlxalq tendensiyalara uyğun inkişaf edir.

Bununla yanaşı, Azərbaycanda formalaşan könüllülük hərəkatı, ASAN xidmət, ABAD, sosial innovasiya layihələri, gənclərin ictimai fəallığının artması və vətəndaş iştirakçılığının güclənməsi ekoloji düşüncənin cəmiyyətin sosial inkişafı ilə vəhdətdə formalaşdığını və daha geniş sosial məzmun daşıdığını nümayiş etdirir. Müasir idarəetmə nəzəriyyəsində bu yanaşma social innovation (sosial innovasiya), participatory governance (iştirakçı idarəetmə) və community resilience (icmaların dayanıqlılığı) anlayışları ilə ifadə olunur. Məqsəd yalnız problemləri həll etmək deyil, cəmiyyətin özünü həmin problemlərin həllində fəal iştirakçıya çevirməkdir.

Beləliklə, IDEA Hərəkatı Azərbaycanda təkcə ətraf mühitə münasibəti dəyişən ekoloji təşəbbüs kimi yox, milli inkişaf təfəkkürünün yeni mərhələsini müəyyən edən mühüm ictimai-sivilizasion hərəkat kimi də tarixə düşüb. Hərəkatın fəaliyyəti nəticəsində ekologiya anlayışı dar çərçivədən çıxaraq dövlət idarəçiliyinin, iqtisadi inkişafın, sosial rifahın, insan kapitalının formalaşdırılmasının və milli təhlükəsizliyin ayrılmaz tərkib hissəsinə çevrilib. Bu gün Azərbaycanda ekoloji məsuliyyət meşələrin qorunması, yaşıllıqların artırılması və ya biomüxtəlifliyin mühafizəsi ilə məhdudlaşmır, o, hər bir vətəndaşın Vətənə, cəmiyyətə və gələcək nəsillərə mənəvi borcunu ifadə edən yüksək dəyərlər sistemidir. Məhz bu fəlsəfə ölkədə insan kapitalının inkişafına, sosial innovasiyaların təşviqinə, məsuliyyətli dövlət idarəçiliyinin formalaşmasına, vətəndaş iştirakçılığının gücləndirilməsinə və milli həmrəyliyin möhkəmlənməsinə yeni məzmun qazandırıb. Ekoloji təfəkkür artıq yalnız təbiəti qorumaq deyil, insanı qorumaq, cəmiyyəti inkişaf etdirmək, dövləti gücləndirmək və gələcəyin təhlükəsizliyini təmin etmək deməkdir. Çünki təbiətə münasibət, əslində, insanın öz gələcəyinə münasibətidir. IDEA Hərəkatının ən böyük tarixi nailiyyəti də məhz budur. Q, cəmiyyətə göstərdi ki, davamlı inkişaf ilk növbədə yüksək mənəviyyat, elmi bilik, sosial məsuliyyət və strateji düşüncə üzərində qurulan inkişaf modelidir. Bu gün tam əminliklə demək olar ki, IDEA Hərəkatı Azərbaycanın inkişaf salnaməsində yeni bir məktəb yaradıb. Bu məktəb təbiətə sevgi ilə vətənpərvərliyi, elm ilə mənəviyyatı, innovasiya ilə milli dəyərləri, dövlətçilik ilə vətəndaş məsuliyyətini vahid ideya ətrafında birləşdirərək müasir Azərbaycanın gələcəyini formalaşdıran strateji inkişaf fəlsəfəsinə çevrilməkdədir.

***Kəramət QƏNBƏROV***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi, Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Mığrı rayonunun Buğakar kəndi: Tarixi keçmişi və mədəni irsi

Qərbi Azərbaycanın tarixi Zəngəzur mahalı Azərbaycan xalqının qədim yaşayış məkanlarından biri olmuşdur. Bu mahalın cənub hissəsində yerləşən Mığrı rayonu tarixən azərbaycanlıların sıx yaşadığı bölgələrdən biri kimi tanınmışdır. Rayonun Nüvədi, Lehvaz, Aldərə, Tuğut, Lök, Maralzəmi, Əkərək və Buğakar kimi kəndləri bölgənin sosial-iqtisadi və mədəni həyatında mühüm rol oynamışdır. Bu yaşayış məntəqələri əsrlər boyu Azərbaycan xalqının dilini, adət-ənənələrini və mənəvi dəyərlərini yaşatmışdır.

Buğakar kəndi həmin yaşayış məntəqələri sırasında xüsusi yer tutur. Hazırda kənd yaşayış məntəqəsi kimi mövcud olmasa da, onun adı tarixi mənbələrdə, arxiv materiallarında və keçmiş sakinlərinin xatirələrində yaşayır. Buğakarın tarixinin araşdırılması təkcə bir kəndin keçmişinin öyrənilməsi deyil, həm də Zəngəzur bölgəsində Azərbaycan xalqının çoxəsrlik varlığının tədqiqi baxımından mühüm əhəmiyyət daşıyır.

**Kəndin coğrafi mövqeyi**

Buğakar kəndi Qərbi Azərbaycanın tarixi Zəngəzur mahalının Mığrı rayonu ərazisində, Araz çayı hövzəsinə yaxın dağətəyi zonada yerləşirdi. Ətrafı dağlar, bulaqlar, meşəliklər və məhsuldar torpaqlarla əhatə olunmuşdu. Əlverişli təbii şərait kənddə əkinçilik, bağçılıq, üzümçülük və maldarlığın inkişafına imkan yaratmışdı.

Kənd Mığrı rayonunun digər Azərbaycan kəndləri - Lehvaz, Nüvədi, Aldərə və Tuğut ilə iqtisadi və mədəni əlaqələr saxlayırdı. Bu yaşayış məntəqələri vahid tarixi-mədəni mühitin tərkib hissəsi idi.

**“Buğakar” toponimi və kəndin tarixi**





Prezident Kitabxanasının “Zəngəzur” elektron layihəsində Buğakar Mığrı rayonunun qədim Azərbaycan kəndlərindən biri kimi göstərilir. Kənd adının mənşəyi barədə müxtəlif fikirlər mövcuddur. Geniş yayılmış mülahizələrdən birinə görə, toponim IX əsrdə yaşamış Abbasi sərkərdəsi Buğa əl-Kəbir ilə əlaqələndirilir. Bununla yanaşı, bu etimologiya bütün tədqiqatçılar tərəfindən qəti qəbul olunmadığından, məsələyə ehtiyatla yanaşmaq məqsədəuyğundur.

**Əhali və təsərrüfat həyatı**

Buğakar kəndinin əhalisi tarixən azərbaycanlılardan ibarət olmuşdur. Sakinlər əsasən əkinçilik, bağçılıq, maldarlıq və arıçılıqla məşğul olurdular. Məhsuldar torpaqlar kənddə müxtəlif meyvə və tərəvəz növlərinin becərilməsinə imkan verirdi. Alma, armud, gavalı, qoz və üzüm bağları kənd təsərrüfatının əsas sahələrindən idi.

Kənd təsərrüfatı məhsulları Mığrı və ətraf yaşayış məntəqələrinin bazarlarında satılır, ailələrin əsas dolanışıq mənbəyini təşkil edirdi. Buğakar sakinləri zəhmətkeşliyi və torpağa bağlılığı ilə seçilirdilər.

**Buğakar piri**

Buğakar kəndinin ən mühüm tarixi-mədəni abidəsi Sultan Seyid Əhməd ziyarətgahı - Buğakar piri idi. Prezident Kitabxanasının və digər rəsmi mənbələrin məlumatına görə, bu ziyarətgah uzun illər Mığrı rayonu ilə yanaşı Naxçıvanın Ordubad bölgəsindən və digər yaşayış məntəqələrindən gələn insanlar tərəfindən ziyarət olunmuşdur.

Pir dini ibadət məkanı olmaqla yanaşı, bölgənin mənəvi həyatında mühüm rol oynamış, insanların inanc və ənənələrinin qorunmasına xidmət etmişdir.

**Kəndin ləğv edilməsi**

Prezident Kitabxanasının “Zəngəzur” layihəsində qeyd edilir ki, Buğakar kəndi sovet hakimiyyəti dövründə inzibati qərarla ləğv edilmiş və əhalisi Lehvaz kəndinə köçürülmüşdür. Ayrı-ayrı mənbələrdə bu hadisənin tarixi fərqli göstərilsə də, Prezident Kitabxanasının məlumatında 1930-cu il qeyd olunur.

Bu köçürülmədən sonra Buğakar ayrıca yaşayış məntəqəsi kimi fəaliyyətini dayandırmış, kənd təsərrüfatı sahələri isə inzibati baxımdan Lehvaz kəndi ilə əlaqələndirilmişdir.

**Deportasiya və tarixi irs**

1987-1988-ci illərdə Qərbi Azərbaycandan azərbaycanlıların deportasiyası nəticəsində Mığrı rayonunda yaşayan Azərbaycan əhalisi də öz doğma yurdlarını tərk etməyə məcbur olmuşdur. Keçmiş Buğakar sakinlərinin ailələri də bu prosesdən təsirlənmiş, ata-baba torpaqlarından didərgin düşmüşlər.

Sonrakı illərdə Buğakar piri və kəndin digər maddi-mədəni irs nümunələri ciddi dağıntılara məruz qalmışdır. Bu, Qərbi Azərbaycanın tarixi irsinin qorunması baxımından böyük itkilərdən biri hesab olunur.

Nəticə etibarı ilə Buğakar kəndinin tarixi Zəngəzur bölgəsində Azərbaycan xalqının çoxəsrlik yaşayışının mühüm nümunəsidir. Kəndin coğrafiyası, təsərrüfat həyatı, dini irsi və sakinlərinin yaratdığı mədəni dəyərlər Qərbi Azərbaycanın tarixi irsinin ayrılmaz hissəsini təşkil edir.

Buğakarın tarixinin elmi əsaslarla öyrənilməsi, arxiv sənədlərinin araşdırılması və tarixi yaddaşın qorunması gələcək nəsillər üçün mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə aparılan tədqiqatlar Zəngəzurun tarixi irsinin daha dolğun şəkildə öyrənilməsinə xidmət edəcəkdir.

*Rahman ZAİROV*

# Rusiyaya qarşı sanksiyalar güclənir

## ABŞ Senatı yeni sanksiyalarla bağlı qanun layihəsini dəstəkləyib

**Hazırda dünyada baş verən hadisələr fonunda “sanksiya siyasəti” daha geniş şəkildə tətbiq olunmağa başlayıb. Dünyanın böyük dövlətləri və blokları qarşılıqlı olaraq sanksiyalar tətbiq etməklə öz üstünlüklərini təmin etməyə çalışırlar. Bu mənada son illərdə ən çox sanksiyalara məruz qalan ölkələrdən biri Rusiyadır. Ukrayna ilə müharibə səbəbilə Avropa İttifaqı Rusiyaya qarşı 20-dən artıq sanksiya paketi qəbul edib. Sanksiya tətbiq edən ölkələr arasında ABŞ-ı da liderlər sırasında hesab etmək mümkündür. Xatırladaq ki, ABŞ Maliyyə Nazirliyinin Xarici Aktivlərə Nəzarət İdarəsinin (OFAC) materiallarına əsasən, nazirlik “Qazprombank”, “BKS Bank” və “DOM.RF” daxil olmaqla 50-dən çox Rusiya bankına qarşı sanksiyalar tətbiq edib. Siyahıya həmçinin “Bratsk Xalq Bankı”, “Enerqotransbank”, “Kremlevski”, “İturup”, “Sinara”, “BBR”, “Fora Bank” və digər banklar da daxil edilib. Bundan əlavə, Rusiyanın maliyyə sektoru ilə əlaqəli şəxslər də sanksiyalara məruz qalıb.**

### Aİ 21-ci sanksiya paketi ilə bağlı razılığa gəlib

İyulun 23-də isə Avropa İttifaqı ölkələri Rusiyaya qarşı 21-ci sanksiya paketi ilə bağlı razılığa gəlib. Bu paket bank sektoruna məhdudiyyətləri sərtləşdirmək və neft-qaz sənayesinə təzyiqi artırmaq məqsədi daşıyır. Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen “X” sosial platformasında yazıb: “Rusiyaya qarşı 21-ci sanksiya paketi ilə bağlı razılaşmanı alqışlayıram. Ukraynanın hərbi impuls qazandığı bir vaxtda sanksiyalarımız Rusiyanın müharibə səylərinin iqtisadi təməllərini zəifləmyə davam edir”. O əlavə edib ki, paket Aİ-nin əməliyyat qadağaları siyahısına Rusiyanın 32 bankını əlavə edir, həmçinin



kriptovalyuta şirkətlərini və neft ticarət platformalarını hədəf alan tədbirləri nəzərdə tutur.

Aİ, həmçinin Moskvanın bazar şoklarından faydalanmasının qarşısını almaq üçün Rusiya neftinin qiymət həddinin tənzimlənməsini bir il müddətinə donduracaq. Ursula Fon der Lyayen qeyd edib ki, Aİ ilk dəfə olaraq Rusiyanın “kölgə donanmasına” kömək edən gəmiləri də hədəfə alacaq. Onun sözlərinə görə, Brüssel Rusiya döyüşçülərinin Aİ ərazisinə daxil olmasını rəsmi olaraq qadağan etmək istiqamətində mühüm addım atıb.

Avropa İttifaqı Rusiyaya qarşı qəbul etdiyi 21-ci sanksiya paketi çərçivəsində uzaqmənzilli dronların istehsalı ilə məşğul olan şəxsləri və şirkətləri sanksiya siyahısına daxil edib. Aİ Şurasının yaydığı məlumata əsasən, paket çərçivəsində Rusiya hərbi-sənaye kompleksi ilə əlaqəli fiziki və hüquqi şəxslərə qarşı ümumilikdə 56 fərdi sanksiya tətbiq olunub. Sənəddə qeyd edilir ki, sanksiya siyahısına salınan 37 fiziki və hüquqi şəxs birbaşa uzaqmənzilli dronların istehsalı və onların təchizat zəncirində fəaliyyət göstərir. Bundan əlavə, yeni sanksiyalar paketi Rusiyanın hərbi potensialını gücləndirən və sanksiyalardan yayınmağa kömək edən qurumları da hədəf alır.

### 82 senator lehinə, 12 senator əleyhinə...

Bugünlərdə isə ABŞ Senatı Rusiyaya qarşı əlavə sanksiyaların nəzərdə tutulduğu qanun layihəsinin müzakirəsinin davam etdirilməsini dəstəkləyib. Prosedur səsverməsi zamanı 82 senator qanun layihəsinin lehinə, 12 senator isə əleyhinə səs verib. Məlumata görə, səsvermənin nəticələri qanun layihəsinin Senatda qəbul olunması üçün kifayət qədər geniş dəstəyin olduğunu göstərir. “Bloomberg” agentliyi isə yazır ki, qanun layihəsi ABŞ Prezidenti Donald Trampa Rusiya neftinin və təbii qazının ən böyük alıcılarına, eləcə də Rusiyaya enerji sanksiyalarından yan keçməyə kömək edən ölkələrə qarşı əlavə rüsumlar tətbiq etmək səlahiyyəti verir. Sənədin mətninə əsasən, Tramp ABŞ-yə idxal olunan Rusiya mallarına 500 faizədək, həmçinin Rusiya neft və qazının ən böyük beş alıcısına və sanksiyalardan yan keçməyə kömək edən ölkələrə qarşı əlavə 100 faizlik rüsumlar tətbiq edə biləcək.

Qanun layihəsi üzrə yekun səsvermənin dəqiq tarixi hələ açıqlanmayıb. Onun gələn həftənin əvvəlində keçiriləsi gözlənilir. Bundan sonra Senat avqustun 10-dan sentyabr ayınadək yay tətilinə çıxacaq. Qanun layihəsinə Nümayəndələr Palatasında isə yalnız sentyabr ayında baxılması gözlənilir.

### Böyük Britaniya da sanksiyaları sərtləşdirir

Bundan əlavə, Aİ Rusiya tərəfindən Kiyevə endirilən ölümcül zərbələr, eləcə də mülki infrastrukturu hədəf alan hücumlarla əlaqədar 1 fiziki və 5 hüquqi şəxsə sanksiyalar tətbiq edib. Aİ-nin məlumatında bildirilib ki, siyahıya daxil edilən 5 şirkət pilotsuz uçuş aparatları üçün elektron və radioelektron komponentlər hazırlayan və istehsal edən “ABS Electro Group”un tərkibində fəaliyyət göstərir. Onların “Shahed” və “Geran” tipli pilotsuz aparatların radioelektron mübarizə vasitələrinə qarşı davamlılığını artıran sistemlərin hazırlanmasına dəstək verdiyi qeyd olunur. Sanksiya siyahısına, həmçinin “ABS Electro Group”un Direktorlar Şurasının sədri və qrupun bir neçə şirkətinin direktoru İrina Xarisova da daxil edilib. Yeni məhdudiyyətlər aktivlərin dondurulmasını, maliyyə və iqtisadi resursların təqdim olunmasının qadağan edilməsini, fiziki şəxs üçün isə Aİ ərazisinə giriş qadağasını nəzərdə tutur.

Böyük Britaniya isə Rusiyanın Avropada sabitliyi pozmağa yönəlmiş kiber və hibrid fəaliyyətlərdə iştirak etdiyini bildirdiyi şəxslər və qurumlara qarşı yeni sanksiyalar paketi elan edib. Sanksiyalar Rusiya kəşfiyyat xidmətləri ilə əlaqəli vasitəçi şəbəkələrdə fəaliyyət göstərən kibercinayətkarlar da daxil olmaqla, ümumilikdə 24 fiziki və hüquqi şəxsi əhatə edir. Sanksiya siyahısına, həmçinin Rusiyanın Baş Kəşfiyyat İdarəsinin (GRU) kiber və hibrid əməliyyatlarına rəhbərlik etməkdə ittiham olunan yüksəkvəzifəli şəxslər- Vyaçeslav Stafeyev, İvan Senin və İvan Kasyanenko da daxil edilib.

Yeni sanksiyalar paketi Avropa İttifaqı ilə koordinasiyalı şəkildə elan olunub.

*N.BAYRAMLI*

# Üçtərəfli görüş...

## Kiprdəki bufer zonasında nələr müzakirə edilib?



BMT-nin Baş katibi Antonio Quterreşin sədrliyi ilə Kiprdəki bufer zonasında adanın yunan və türk liderlərinin iştirak etdikləri üçtərəfli görüş keçirilib.

Türkiyə mediası xəbər verir ki, BMT Baş katibi görüşdən sonra bildirib: “BMT sülhü zorla qəbul etdirə bilməz, lakin Kipr xalqını dəstəkləməyə sadiqdir”.

Paytaxt Nikosiyada bufer zonasında yerləşən Birləşmiş Millətlər Təşkilatının (BMT) qərargahında keçirilən görüşdə BMT-nin Baş katibi Antonio Quterreş, Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Prezidenti Tufan Erhürman və yunan Kipr Administrasiyasının (KKA) lideri Nikos Xristodulides iştirak ediblər. Üçtərəfli görüş bir saatdan çox davam edib.

Görüşdən sonra ŞKTC Prezidenti Erhürman və yunan Kiprinin lideri Xristodulides bufer zonasını tərk ediblər.

Görüşdən sonra Baş katib Quterreş mətbuat konfransı keçirib. O qeyd edib ki, hər iki tərəf və onların zaminləri “5+5” formatında görüş keçirmək barədə razılığa gəlib, lakin bunun üçün kifayət qədər müddət, etimad təbirləri, metodoloji və əsaslı hazırlıqlar tələb olunur. O əlavə edib: “Xüsusilə, üç zamin ölkənin (Yunanıstan, Türkiyə və Birləşmiş Krallıq) davamlı dəstəyinə ümid edirəm. Birləşmiş Millətlər Təşkilatı sülhü zorla qəbul etdirə bilməz, lakin ada və daha geniş region üçün bu vacib dövrdə Kipr xalqını dəstəkləməyə tam sadiqdir. Hesab edirəm ki, Kiprdə həll yoluna nail olmaq yalnız Kipr xalqının maraqlarını və sülhü qorumaq üçün deyil, həm də getdikcə təhlükəli dərəcədə qeyri-sabit olan regionda sabitlik amili kimi tamamilə vacibdir”.

# Avropanın hərbiləşməsi

## Yeni təhlükəsizlik arxitekturası, yoxsa yeni silahlanma yarışı?

## Müharibə Avropanı dəyişir

**2022-ci ildən sonra Avropanın təhlükəsizlik siyasəti köklü şəkildə dəyişməyə başladı. Əgər uzun illər Avropa İttifaqı iqtisadi inteqrasiya, sosial rifah və "yumşaq güc" konsepsiyası ilə tanınırdısa, bu gün qitədə əsas müzakirə mövzusu müdafiə sənayesi, hərbi texnologiyalar və kollektiv təhlükəsizlikdir. Son iki ildə qəbul edilən qərarlar göstərir ki, Avropa dövlətləri artıq təhlükəsizliyi yalnız ABŞ-ın təmin edəcəyi bir məsələ kimi görmür. Bu dəyişimin ən son nümunələrindən biri 13 iyul 2026-cı ildə Parisdə elan edilən yeni Avropa-Ukrayna antiballistik raketdən müdafiə koalisiyasıdır. Fransa, Almaniya, Böyük Britaniya, İtaliya, İspaniya, Niderland, Norveç, Danimarka və İsveç Ukrayna ilə birlikdə vahid raketdən müdafiə potensialının yaradılması barədə razılığa gəliblər. Məqsəd təkcə Ukraynanı dəstəkləmək deyil, həm də Avropanın gələcək təhlükəsizlik sistemini yenidən qurmaqdır. Bu qərar əslində daha böyük prosesin bir hissəsidir.**

## Avropa niyə silahlanır?

Bir çox müşahidəçi bunu yalnız Rusiya-Ukrayna müharibəsi ilə əlaqələndirir, halbuki səbəblər daha genişdir. Birincisi, Avropa paytaxtlarında belə hesab olunur ki, gələcəkdə ABŞ administrasiyalarının NATO-ya münasibəti əvvəlki qədər sabit olmaya bilər. Son illər Vaşinqtondan gələn siyasi siqnallar Avropada "strateji muxtariyyət" anlayışını yenidən aktuallaşdırıb. İkincisi, raket və pilotsuz uçuş aparatlarının sürətlə inkişafı klassik müdafiə sistemlərini köhnəldir. Ukrayna müharibəsi göstərdi ki, ucuz dronlar milyonlarla dollar dəyərində silah sistemlərini belə sıradan çıxara bilir. Üçüncüsü, Avropa müdafiə sənayesi uzun illər ərzində sülh iqtisadiyyatına uyğun fəaliyyət göstərib. İndi isə sursat, hava hücumundan müdafiə sistemləri, raketlər və elektron müharibə vasitələrinə tələbat kəskin artıb.

## NATO dəyişirmi?

Bu gün ən çox müzakirə olunan suallardan biri budur. NATO əvvəlki NATO-durmu? Bəzi analitiklər hesab edirlər ki, artıq yox. Reuters-in müdafiə sahəsi üzrə təhlillərində qeyd olunur ki, Avropa ölkələri ABŞ-ın müəyyən sahələrdə azaltdığı imkanları qısa müddətdə öz hesabına kompensasiya etməyə çalışır. NATO-nun Ali Müttəfiq Komandanlığının məlumatına görə, Avropa müttəfiqləri və Kanada son illər müdafiə planlarında yaranmış boşluqların əhəmiyyətli hissəsini doldurub. Bununla yanaşı, NATO daxilində yeni yanaşma formalaşır: daha çox Avropa istehsalı, daha çox ortaq müdafiə sənayesi, daha çox regional komandanlıq, daha çox texnoloji inteqrasiya. Bu isə alyansın strukturunda keyfiyyət dəyişikliyindən xəbər verir.

## ABŞ nə istəyir?

Vaşinqtonun mövqeyi ilk baxışdan paradoksal görünə bilər. Bir tərəfdən, ABŞ Avropa ölkələrinin müdafiəyə daha çox vəsait ayırmasını uzun illərdir tələb edir, digər tərəfdən, Avropanın tam hərbi müstəqilliyi də ABŞ üçün müəyyən strateji suallar yaradır. Reuters-in təhlilində qeyd olunur ki, NATO ölkələri 2035-ci ilədək müdafiə xərclərini ümumilikdə ÜDM-in 5 faizinə çatdırmaq öhdəliyi götürüb. Bunun 3,5 faizi birbaşa müdafiəyə, əlavə 1,5 faizi isə təhlükəsizlik infrastrukturu və əlaqəli sahələrə yönəldiləcək. Bununla belə, bir sıra Avropa ölkələri artıq büdcə yükü ilə üzləşir. ABŞ üçün ideal model belə görünür: Avropa daha çox maliyyə məsuliyyəti daşısın, NATO-nun siyasi birliyi qorunsun, ABŞ isə strateji lider rolunu saxlasın.

## Avropa iki paralel proses yaşayır

Bir tərəfdən hərbi imkanlarını artırmağa, digər tərəfdən bunun iqtisadi və siyasi nəticələrini idarə etməyə çalışır. Bu, təkcə silahlanma deyil, həm də yeni təhlükəsizlik fəlsəfəsinin formalaşmasıdır. Lakin əsas suallar hələ də açıq qalır: bu proses Avropanı daha təhlükəsiz edəcək, yoxsa yeni geosiyasi rəqabətin başlanğıcını sürətləndirəcək? Avropanın hərbiləşməsi NATO-nun yeni təhlükəsizlik arxitekturasını qurur, yoxsa yeni silahlanma yarışının başlanğıcıdır? Bu sualların cavabını Avropa liderlərinin baxışlarında, ortaq təhlükəsizlik siyasətində, ya da fərqli milli maraqlarında axtarmaq lazımdır.

Avropanın müdafiə siyasətində son illər müşahidə olunan fəallıq ilk baxışdan vahid strategiya təsiri bağışlasa da, əslində hər bir dövlət bu prosesə öz milli maraqları prizmasından yanaşır. Bütün üzvlər Rusiyadan qaynaqlanan təhlükəsizlik riskini qəbul etsə də, təhlükəyə verilən cavab forması və prioritetlər ölkədən ölkəyə fərqlənir. Fransa "Avropa strateji cəhətdən daha müstəqil olmalıdır" deyir. Prezident Emmanuel Makron uzun müddətdir "strateji muxtariyyət" ideyasını müdafiə edir. Onun fikrincə, Avropa NATO-nun əsas sütunlarından biri kimi qalmalıdır, lakin eyni zamanda ABŞ-dan həddindən artıq asılı olmayan müdafiə potensialına yiyələnməlidir. Fransa üçün əsas prioritetlər bunlardır: Avropa müdafiə sənayesinin gücləndirilməsi, ortaq silah istehsalı, süni intellekt və kosmik texnologiyalara investisiyalar, Avropa ordularının operativ uyğunluğunun artırılması. Le Monde qəzetində dərc olunan təhlillərə və France 24-də səslənən ekspert şərhlərinə inansaq, Paris hesab edir ki, XXI əsrdə iqtisadi müstəqilliklə hərbi müstəqillik bir-birindən ayrılmaz anlayışlardır. Almaniya isə "Sülh istəyiriksə, müdafiəyə hazır olmalıyıq" deyir. İkinci Dünya müharibəsindən sonra uzun müddət hərbi məsələlərdə ehtiyatlı davranan Almaniya son illər təhlükəsizlik siyasətində ciddi dönüş edib. Berlin artıq müdafiə büdcəsini artırır, yeni zenit-raket sistemləri alır, hərbi sənayeyə milyardlarla avro yatırır, Bundesverin modernləşdirilməsini sürətləndirir. Der Spiegel və Frankfurter Allgemeine Zeitung analitiklərinin fikrincə, Almaniyada artıq "sülh dividendinin" başa çatdığı qəbul edilir. İctimaiyyətin mühüm hissəsi bu fikirdədir ki, Avropada təhlükəsizliyin təmin edilməsi üçün daha güclü müdafiə qabiliyyəti zəruridir. Böyük Britaniya da NATO-nun Avropa sütununun gücləndirilməsinin tərəfdarıdır. Avropa İttifaqından ayrılmasına baxmayaraq, İngiltərə NATO daxilində aparıcı hərbi güclərdən biri kimi qalır. Londonun əsas prioritetləri NATO-nun şərq cinahının möhkəmləndirilməsi, Ukraynaya hərbi dəstəyin davam etdirilməsi, dəniz təhlükəsizliyi və nüvə çəkindirmə qabiliyyətinin qorunmasıdır. BBC-nin müdafiə üzrə ekspertləri qeyd edirlər ki, Böyük Britaniya hələ də özünü ABŞ ilə Avropa arasında təhlükəsizlik körpüsü kimi görməkdədir. Polşa da Şərqi Avropanın yeni təhlükəsizlik mərkəzinə çevrilir. Sürətlə hərbiləşən Avropa dövlətlərindən biri də məhz Polşadır. Varşava müdafiə xərclərini NATO üzrə ən yüksək səviyyələrdən birinə çatdırıb, ABŞ və Cənubi Koreyadan böyük həcmdə silah alır, yeni hərbi bazalar yaradır və sərhəd təhlükəsizliyini gücləndirir. Bir çox analitik hesab edir ki, Polşa gələcəkdə NATO-nun şərq cinahında əsas hərbi-logistika mərkəzlərindən birinə çevriləcək.

İtaliya və İspaniya isə balans siyasəti aparır. Roma ilə Madrid təhlükəsizlik məsələlərində NATO öhdəliklərini dəstəkləsə də, müdafiə xərclərinin sürətli artırılmasının iqtisadi nəticələri barədə daha ehtiyatlı mövqe tutur. Bu ölkələrdə hesab edirlər ki, müdafiə vacibdir, lakin sosial proqramların maliyyələşdirilməsi də qorunmalıdır. Onların fikrincə, iqtisadi sabitlik uzunmüddətli təhlükəsizliyin ayrılmaz hissəsi olmalıdır. Bu yanaşma Avropa daxilində təhlükəsizlik və iqtisadi prioritetlər arasında balans axtarıldığını göstərir.



## Ukrayna artıq yalnız yardım alan ölkə deyil

Müharibənin dördüncü ili göstərdi ki, Ukrayna təkcə silah alan yox, həm də hərbi innovasiyalar istehsal edən ölkəyə çevrilib. Reuters-in analitik yazısında maraqlı fikir ifadə olunur: NATO artıq bəzi texnologiyaları Ukraynadan öyrənməlidir. Xüsusilə pilotsuz uçuş aparatları, elektron müharibə və sürətli istehsal modelləri sahəsində Ukraynanın təcrübəsi alyans üçün praktik əhəmiyyət daşıyır. Bu yanaşma klassik hərbi münasibətləri dəyişir. Əvvəllər NATO Ukraynaya təcrübə ötürürdüsə, indi müəyyən sahələrdə Ukraynanın döyüş meydanında qazandığı biliklər Avropa ordularının planlaşdırılmasına təsir göstərir. Avropanın qarşısında duran əsas problem kimi müdafiə xərclərinin artırılması və ya silah istehsalının genişləndirilməsi haqqında siyasi qərarlar nisbətən qısa müddətdə qəbul edilə bilər, lakin həmin qərarların real hərbi imkanlara çevrilməsi uzunmüddətli və mürəkkəb prosesdir. Yeni müdafiə sənayesi müəssisələrinin tikilməsi, yüksək ixtisaslı mühəndis və texniki mütəxəssislərin hazırlanması, raket və hava hücumundan müdafiə sistemlərinin istehsal gücünün artırılması, mikroelektronika və digər kritik komponentlər üzrə etibarlı təchizat zəncirinin formalaşdırılması, eləcə də logistika və təmir infrastrukturunun yenidən qurulması illərlə vaxt, böyük maliyyə resursları və davamlı dövlət siyasəti tələb edir. Buna görə də müdafiə büdcəsinin artırılması avtomatik olaraq ordunun döyüş qabiliyyətinin eyni sürətlə yüksəlməsi demək deyil. Hərbi potensialın formalaşması sənaye, texnologiya, insan kapitalı və təşkilati idarəetmənin paralel inkişafından asılı olan kompleks prosesdir. Məhz buna görə SIPRI, Reuters və Avropanın müxtəlif analitik mərkəzləri eyni nəticəyə gəlirlər: müdafiə büdcələrinin artması avtomatik olaraq hərbi hazırlığın eyni sürətlə yüksəlməsi demək deyil. Sənaye gücü, texnologiya və insan resursları paralel inkişaf etməlidir.

## Bəs beynəlxalq analitik mərkəzlər nə deyir?

Britaniyanın nüfuzlu Chatham House analitikləri hesab edirlər ki, Avropa artıq "post-soyuq müharibə təhlükəsizlik modeli"ndən çıxır. Onların fikrincə, yeni dövrdə kollektiv müdafiə yalnız hərbi qüvvələrin sayına deyil, sənaye, texnologiya və siyasi iradəyə əsaslanacaq. RAND ekspertləri vurğulayırlar ki, gələcək müharibələrdə üstünlüyü pilotsuz sistemlər, süni intellekt, elektron müharibə, peyk infrastrukturu və kibertəhlükəsizlik müəyyən edəcək. Onların qənaətinə görə, yalnız tank və artilleriyanın sayını artırmaq kifayət deyil. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutu (SIPRI) bildirir ki, Avropada müdafiə xərclərinin artması artıq bir neçə ildir davam edir və bu tendensiya qitənin təhlükəsizlik mühitində uzunmüddətli dəyişikliklərin göstəricisidir. İnstitut eyni zamanda xəbərdarlıq edir ki, hərbi xərclərin artması ilə yanaşı, böhranların qarşısını alan diplomatik mexanizmlərin də gücləndirilməsi vacibdir. Vaşinqtondakı CSIS analitiklərinin fikrincə, NATO üçün əsas məsələ artıq yalnız kollektiv müdafiə deyil. Yeni prioritetlər sursat ehtiyatlarının artırılması, müdafiə sənayesinin fasiləsiz istehsalı, kritik infrastrukturun qorunması, süni intellektin hərbi tətbiqi və kosmosun təhlükəsizlik sisteminə inteqrasiyasıdır.

## Beynəlxalq media hadisələri necə qiymətləndirir?

Reuters əsas diqqəti müdafiə sənayesinin iqtisadi tərəfinə yönəldir. Agentliyin təhlillərində qeyd olunur ki, Avropa ölkələrinin müdafiə büdcələrini artırması yeni investisiya imkanları yaratsa da, dövlət borcunun artması və fiskal yük kimi problemləri də gündəmə gətirir.

Financial Times müdafiə sənayesinin yenidən qurulmasını Avropanın iqtisadi transformasiyasının bir hissəsi kimi qiymətləndirir. Qəzetin analitikləri hesab edirlər ki, müdafiə texnologiyalarına qoyulan investisiyalar mülki innovasiyalara da müsbət təsir göstərə bilər.

The Economist yazır ki, Avropa uzun müddət təhlükəsizliyi "outsorsinq" etmişdi. İndi isə həmin təhlükəsizlik məsuliyyətinin daha böyük hissəsini öz üzərinə götürmək mərhələsinə adlayır. Jurnal bunun həm siyasi, həm də maliyyə baxımından çətin proses olacağını vurğulayır.

BBC-nin analitik materiallarında əsas sual belə qoyulur: Avropa müdafiə qabiliyyətini gücləndirərkən bunu yeni silahlanma yarışına çevirmədən necə həyata keçirə bilər? Bu sual hazırda Avropa siyasətinin ən mühüm dilemması hesab olunur. Beynəlxalq ekspertlər arasında da əsas fikir ayrılığı məhz burada yaranır. Bir qrup hesab edir ki, güclü müdafiə müharibənin qarşısını alır, digər qrup bildirir ki, silahlanmanın sürətlənməsi qarşı tərəfi də analoji addımlar atmağa sövq edə və təhlükəsizlik dilemmasını dərinləşdirə bilər. Hər iki yanaşmanın tərəfdarları beynəlxalq münasibətlər nəzəriyyəsində mövcuddur və onların arqumentləri təhlükəsizlik siyasətinin mürəkkəbliyini göstərir.

## Müdafiə büdcələrinin artmasının iqtisadi tərəfi

Avropa Komissiyasının son təşəbbüsləri və NATO daxilində qəbul edilən yeni hədəflər göstərir ki, müdafiə xərclərinin yüksəlməsi yaxın illərdə də davam edəcək. Bununla yanaşı, iqtisadçılar xəbərdarlıq edirlər ki, dövlət büdcələrinin imkanları məhduddur. Artan hərbi xərclər sosial müdafiə proqramlarına, səhiyyə və təhsil xərclərinə, infrastruktur layihələrinə, dövlət borcu və büdcə kəsirinə, inflyasiya və faiz dərəcələrinə təsir göstərə bilər. OECD və IMF ekspertləri hesab edirlər ki, müdafiəyə əlavə vəsait ayrılarkən fiskal dayanıqlılıq da qorunmalıdır. Əks halda təhlükəsizliyi gücləndirmək məqsədilə qəbul edilən qərarlar uzunmüddətli iqtisadi sabitliyi zəiflədə bilər. Beynəlxalq münasibətlər üzrə ekspertlərin əksəriyyəti bu qənaəti bölüşür ki, NATO yaxın onillikdə fəaliyyətini davam etdirəcək, lakin Alyansın xarakteri dəyişəcək. Əgər XX əsrdə NATO əsasən kollektiv müdafiə təşkilatı idisə, XXI əsrdə onun fəaliyyət dairəsinə kibertəhlükəsizlik, süni intellekt əsaslı hərbi sistemlər, kosmik infrastrukturun mühafizəsi, kritik enerji və kommunikasiya şəbəkələrinin qorunması, dezinformasiyaya qarşı mübarizə, xammal və texnologiya təhlükəsizliyi də daxil olur. Bu dəyişikliklər göstərir ki, müasir təhlükəsizlik anlayışı artıq yalnız tanklar, təyyarələr və raketlərlə ölçülmür.

## Silahlanma iqtisadiyyatı: Avropa yeni sənaye inqilabına qədəm qoyur?

Müdafiə xərclərinin artması yalnız hərbi məsələlərlə məhdudlaşmır. Tarix göstərir ki, böyük geosiyasi böhranlar iqtisadiyyatın strukturunu da dəyişdirir. Soyuq müharibə dövründə kosmik texnologiyalar, internet, mikroelektronika və peyk rabitəsi əvvəlcə hərbi layihələr kimi formalaşmış, sonradan mülki sektorda geniş tətbiq olunmuşdu. Bu gün də süni intellekt, kvant texnologiyaları, pilotsuz sistemlər və kibertəhlükəsizlik sahələrində oxşar tendensiya müşahidə edilir.

The Economist və Financial Times nəşrləri bu prosesi "Avropanın yeni sənaye transformasiyası" kimi qiymətləndirir. Onların təhlillərində vurğulanır ki, müdafiə sənayesinə yönələn investisiyalar yalnız silah istehsalını yox, yarımkeçiricilər, proqram təminatı, robototexnika və yüksək dəqiqlikli istehsal sahələrini də inkişaf etdirə bilər. Lakin bu potensial yalnız uzunmüddətli planlaşdırma və koordinasiya ilə reallaşa bilər.

## Ekspertlər hansı risklərə diqqət çəkirlər?

ABŞ-ın tanınmış təhlükəsizlik eksperti Fiona Hill hesab edir ki, Avropanın təhlükəsizlik siyasəti yalnız hərbi komponent üzərində qurulmamalıdır. Onun fikrincə, siyasi birlik və strateji koordinasiya olmadan ən müasir silah sistemləri belə gözlənən nəticəni verməyə bilər.

London Kral Kollecinin professoru, hərbi strategiya üzrə tanınmış alim Lawrence Freedman vurğulayır ki, çəkindirmə siyasəti yalnız qarşı tərəfin niyyətlərini düzgün qiymətləndirə bildikdə işləyir. Yanlış hesablamalar isə böhranların idarə olunmasını çətinləşdirə bilər.

Hərbi analitik Michael Kofman müasir müharibələrin əsas xüsusiyyətinin sürətli texnoloji adaptasiya olduğunu vurğulayır. Onun fikrincə, yalnız silah almaq kifayət deyil; sənaye, logistika, kadr hazırlığı və innovasiya eyni sürətlə inkişaf etməlidir.

Bizim fikrimizcə, Avropanın təhlükəsizlik siyasətində əsas məqsəd hərbiləşmə yox, davamlı təhlükəsizlik modelinin qurulması olmalıdır. Hazırkı beynəlxalq vəziyyət göstərir ki, müdafiə potensialının gücləndirilməsi bir çox Avropa dövləti üçün obyektiv təhlükəsizlik ehtiyacından irəli gəlir. Bununla belə, müdafiə siyasətinin uzunmüddətli uğuru yalnız silahlanmanın həcmi ilə deyil, siyasi dialoq, iqtisadi dayanıqlıq və beynəlxalq hüquqa hörmətlə ölçüləcək. Qənaətimizcə, Avropa müdafiə sənayesində koordinasiya artırılmalıdır. Müxtəlif ölkələrdə eyni tip silah sistemlərinin paralel istehsalı əvəzinə ortaq standartlar və birgə istehsal proqramları genişləndirilməlidir. NATO-Avropa İttifaqı əməkdaşlığı daha institusional xarakter almalıdır. İki təşkilat arasında səlahiyyət bölgüsü və əməliyyat koordinasiyası daha aydın müəyyən edilməlidir. Süni intellekt üzrə beynəlxalq etik normalar hazırlanmalıdır. Hərbi süni intellekt sistemlərinin tətbiqi insan nəzarətindən tam kənara çıxmamalıdır. Müdafiə xərclərinin artırılması parlament nəzarəti altında həyata keçirilməlidir, şəffaflıq və ictimai hesabatlılıq müdafiə siyasətinin legitimliyini gücləndirər. Bundan başqa, müdafiə sənayesinə qoyulan investisiyalar mülki innovasiyalara da xidmət etməlidir - ikili təyinatlı texnologiyalar iqtisadi inkişafı sürətləndirə bilər. Diplomatik platformalar zəiflədilməməlidir, hərbi çəkindirmə dialoqu əvəz etməməli, onu tamamlamalıdır. Kibertəhlükəsizlik ümumi Avropa təhlükəsizlik strategiyasının əsas sütunlarından birinə çevrilməlidir.

Rəqəmsal infrastruktura hücumlar artıq klassik hərbi təhlükələrlə müqayisə edilə bilən risk yaradır. Buna görə müdafiə sahəsində insan kapitalına investisiyalar artırılmalıdır. Ali təhsil müəssisələri, elmi-tədqiqat institutları və sənaye arasında əməkdaşlıq gücləndirilməlidir. Regional böhranların qarşısının alınmasına yönəlmiş erkən xəbərdarlıq mexanizmləri inkişaf etdirilməlidir - münaqişələrin yaranma mərhələsində qarşısının alınması daha səmərəlidir. Buna görə təhlükəsizlik siyasətinin mərkəzində insan təhlükəsizliyi dayanmalıdır. Müdafiə yalnız sərhədlərin qorunması deyil, vətəndaşların rifahı, iqtisadi sabitlik və hüquqi dövlət prinsiplərinin təmin olunması ilə birlikdə qiymətləndirilməlidir.

Avropa bu gün tarixi seçim qarşısındadır. Bir tərəfdə dəyişən təhlükəsizlik mühiti və artan geosiyasi risklər, digər tərəfdə iqtisadi dayanıqlıq, sosial rifah və beynəlxalq hüququn qorunması durur. Bu iki istiqamət arasında düzgün balansın tapılması qarşıdakı onilliklərdə qitənin gələcəyini müəyyən edəcək. Avropanın gələcək uğuru yalnız müdafiə büdcələrinin artımından yox, bu resursların nə dərəcədə səmərəli idarə edilməsindən və beynəlxalq əməkdaşlıqla uzlaşdırılmasından asılı olacaq.

***Kəramət QƏNBƏROV***
***Beynəlxalq hüquq üzrə ekspert***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Dost dar gündə tanınar

## Dostluq insanları birləşdirən ən qiymətli sərvətdir...

**Dostluq insan həyatının elə bir mənəvi sərvətidir ki, onun dəyərini maddi imkanlarla ölçmək mümkün deyil. Zaman dəyişsə də, həyat insanı müxtəlif sınaqlarla üz-üzə qoysa da, həqiqi dostun varlığı insana güvən hissi bəxş edir, çətinliklərin öhdəsindən daha inamla gəlməyə kömək edir. Bu baxımdan nəcib və misilsiz hisslərin təzahürü olan dostluq bəşəriyyət üçün böyük əhəmiyyətə malikdir. Dünyanın elə bir guşəsi yoxdur ki, orada dostsuz-yoldaşsız yaşamaq mümkün olsun. Təbii ki, hamı ilə dost olmaq mümkün deyil. Bu baxımdan dost seçimində ilk öncə ağlımız, yəni həyata baxışımız dost olacağımız insanla uyğun olmalıdır. Bizi başa düşə bilən, hisslərimizi paylaşan, lazım olanda bizə dəstək olan, hər şeydən əvvəl bizi incitmədən səhvlərimizi söyləyən insanlarla dost olmalıyıq. Bəlkə elə buna görədir ki, 2011-ci ildə Paraqvay Respublikasının təşəbbüsü ilə BMT-nin Baş Məclisi iyulun 30-nu Beynəlxalq Dostluq Günü elan edib. Qurumun üzvü olan ölkələrdə Dostluq Gününün qeyd olunmasının Baş Məclis tərəfindən tövsiyə edilməsi həm də xalqlar, ölkələr, mədəniyyətlər arasında sülh səylərini ruhlandırmaq və icmalar arasında körpülər qurmaq ideyasından irəli gəlirdi.**

### Yaxınlıq və oxşarlıq...

Dostluğun formalaşmasında ən vacib amillərdən biri yaxınlıqdır. İnsanlar bir-birinə fiziki cəhətdən yaxın olduqda, məsələn, eyni məhəllədə yaşayırlarsa, eyni məktəbdə oxuyur və ya eyni iş yerində işləyirlərsə, daha çox dostluq edirlər. Bundan əlavə, oxşarlıq da dostluğun inkişafında rol oynayır. Biz ümumi maraqları, dəyərləri və münasibətləri paylaşdığımız biri ilə dost olmağa meyl edirik.

### Qarşılılıq və güvən...

Qarşılılıq dostluğun mühüm aspektidir. Balanslaşdırılmış duyğular, dəstək və lütf mübadiləsi dostlar arasındakı bağı gücləndirir. Dostluqda güvən də vacib nüansdır. Çünki güvən əsl dostluğun mühüm göstəricilərindən sayılır.

Dostluğun əsas funksiyalarından biri emosional dəstək verməkdir. Dostlar dinləmək, empatiya qurmaq və həyatdakı çətinliklərin öhdəsindən gəlməyə kömək etmək üçün yanımızdadırlar. Belə ki, başqalarının keçirdiyi hisləri başa düşmək və bölüşmək bacarığı güclü bir dostluq əlaqəsinin olduğunu sübut edir.

### Münaqişələrin həlli və ünsiyyət...

Dostlar münaqişələrdən və fikir ayrılıqlarından qorunmur. Onların baş vermiş münaqişələri necə həll etmələri və hisslərini ifadə etmələri dostluq münasibətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Effektiv ünsiyyət, aktiv dinləmə və konfliktləri konstruktiv həll etmək bacarığı sağlam dostluq münasibətlərinin qorunması üçün vacibdir.

### Psixoloji sağlamlıq üçün vacibdir

Mütəxəssislər dəfələrlə qeyd ediblər ki, sağlam dostluq münasibətləri insanın psixoloji durumuna müsbət təsir göstərir. Stresin azalmasına, özünəinamın artmasına və cəmiyyətə daha fəal inteqrasiya olunmasına şərait yaradır. Çünki insan sosial varlıq olaraq hisslərini bölüşməyə, anlayış görməyə və etibar edə biləcəyi insanların əhatəsində yaşamağa ehtiyac duyur. Məhz buna görə də dostluq təkcə mənəvi deyil, həm də sosial rifahın əsas dayaqlarından biri hesab edilir.

Tarix boyu xalqlar arasında sülhün, qarşılıqlı anlaşmanın və əməkdaşlığın möhkəmlənməsində dostluq münasibətlərinin mühüm rol oynadığı dəfələrlə sübut olunub. Qarşılıqlı etimadın formalaşdığı cəmiyyətlərdə həm inkişaf daha sürətli olur, həm də insanlar fərqli baxışlara və mədəniyyətlərə daha böyük hörmətlə yanaşır. Nəticədə isə həm fərdi, həm də ictimai münasibətlər sağlam təməl üzərində qurulur.

Xalqımız da əsrlər boyu dostluğa, sədaqətə və etibara xüsusi önəm verib, folklorumuzda, atalar sözlərimizdə və klassik ədəbiyyatımızda dostluğun müqəddəs dəyər kimi təqdim olunması bunun bariz nümunəsidir. Xalq hikməti yaxşı dostun insan üçün ən böyük sərvətlərdən biri olduğunu hər zaman ön plana çəkib.

Ümumdünya Dostluq Günü bir daha xatırladır ki, zaman keçdikcə və həyatın şərtləri dəyişdikcə insanın ən böyük ehtiyacı anlayış, etibar, sədaqət və səmimiyyət olaraq qalır. Bütün bu dəyərlərin cəmləşdiyi dostluq isə insan ömrünü zənginləşdirən, çətinlikləri yüngülləşdirən, uğurları daha mənalı edən və dünyanı humanist, mehriban və yaşanılan bir məkana çevirən əvəzolunmaz mənəvi sərvətdir.

*Yeganə BAYRAMOVA*

**Allah rəhmət eləsin!**

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı məşhur “91-lər”dən olan

**HACAN HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

# Ümidləri və arzuları oğurlayan cinayət...

## İnsan alverinə qarşı necə mübarizə aparaq?

İnsan alveri müasir dünyanın ən ciddi və geniş yayılmış problemlərindən hesab olunur. Bu cinayətin qurbanları arasında qadınlar və uşaqlar daha çox yer alır. İnsan alveri yalnız bir şəxsin qanunsuz şəkildə başqa bir yerə aparılması deyil, insanların ümidlərindən, çarəsizliyindən və daha yaxşı həyat arzularından istifadə edərək onları məcburi əmək, istismar və zorakılıq mühitinə sürükləyən mürəkkəb və təhlükəli bir sistemdir.

Dünyanın bir çox ölkəsində rast gəlinən bu problemə qarşı mübarizəni gücləndirmək məqsədilə beynəlxalq konvensiyalar, protokollar, dövlətlərarası əməkdaşlıq sazişləri və digər hüquqi sənədlər qəbul edilir. Həmin sənədlərdə insan alverinin qarşısının alınması və onunla səmərəli mübarizə aparılması üçün dövlətlər arasında sıx əməkdaşlığın və qarşılıqlı dəstəyin vacibliyi xüsusi vurğulanır.

İnsan alverçiləri çox vaxt öz cinayətlərini gizlətmək üçün saxta iş təkliflərindən, yüksək gəlir vədlərindən, xaricdə parlaq gələcək arzularından istifadə edirlər. Beləliklə, insanların etibarını qazanaraq onları nəzarət altına almağa çalışırlar. Məhz buna görə də bu cinayət növü ilə mübarizədə yalnız hüquq-mühafizə orqanlarının deyil, bütün cəmiyyətin diqqətli və məsuliyyətli olması böyük əhəmiyyət daşıyır.

### 32 milyard dollar gəlir...

Birləşmiş Millətlər Təşkilatının (BMT) məlumatına əsasən, dünyada insan alverindən gələn gəlir təxminən 32 milyard ABŞ dolları təşkil edir. BMT-nin hesabatına görə, hər beş insan alveri qurbanından biri yetkinlik yaşına çatmayan gənclərdir. Bu qurbanların sayının artmasına əsaslanaraq, bir çox ölkədə insan alveri ilə məşğul olan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün normativ hüquqi aktlar qəbul edilib.




### Hər üç qurbandan biri uşaqdır...

Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) hesablamasına görə, hər il 1,2 milyon uşaq uşaq alverinin qurbanı olur. Aşkar olunan qurbanlar arasında uşaqların faiz nisbəti artmaqdadır: hər üç qurbandan biri uşaqdır. İnsan alverinin qurbanı olan hər üç uşaqdan ikisi qızlardır. Beynəlxalq Əmək Təşkilatının (BƏT) hesablamasına görə, məcburi əməyə məruz qalanların 40 -50 faizi 18 yaşınadək olanlardır.

### İnsan alveri necə baş verir?

İnsan alverində əsas məqamlardan biri qurbanın istismara cəlb edilməsidir. Qurbanları cəlb edən şəxslər onlara çoxlu yalan vədlər edirlər. Bəzi hallarda qurban nə işlə məşğul olacağını əvvəlcədən bilir, amma hansı şərtlərlə qarşılaşacağını təsəvvür etmir. İnsanları istismara cəlb edənlər tez-tez KİV-də yalançı elanlar verir, internetdə saxta saytlar açır, bəzən isə saxta işəgötürmə agentlikləri də yaradırlar. Onlar uşaq dayələri, xəstə baxıcısı, evlərə yardımçı, ofisiant, model, rəqqasə və s. işlər təklif edirlər. Verilən vədlər çox inandırıcı və cəlbedici olur. İnsanları belə işlərə cəlb edənlər, onların yaxın dost, rəfiqə və hətta qohumları da ola bilərlər.

### Qurban hansı təzyiqlərlə üzləşir?

Qurban azad hərəkət edə bilmir, onu adətən borc tələsinə salır və işləyərək, onun üçün ödənilən pulların əvəzini çıxmağa məcbur edirlər. Nəticədə, pulun miqdarı getdikcə artır, üstünə faizlər, qurbanın saxlanılması üçün xərclənən pullar, müxtəlif cərimələr gəlir. Qurbanın sənədləri alınır, sərbəst hərəkət etməsinə və yaxınları ilə ünsiyyət qurmasına qadağalar qoyulur.

### Hansı hallar insan alveri hesab olunur?

Avropa Şurasının “İnsan alverinə qarşı mübarizə haqqında” 16 may 2005-ci il tarixli Varşava Konvensiyasında “insan alveri” anlayışı belə təsbit olunub: İnsan alveri dedikdə, hədə-qorxu və ya zor tətbiq etməklə, yaxud başqa cür məcbur etməklə qaçırma, dələduzluq və ya aldatma yolu ilə, vəzifədən və ya şəxsin köməksiz vəziyyətindən sui-istifadə etməklə şəxslərin istismar məqsədləri üçün cəlb edilməsi, daşınması, ötürülməsi, gizlədilməsi və ya qəbul edilməsi başa düşülür.

Yeri gəlmişkən, Azərbaycan da bu konvensiyaya qoşulub və sənəd 11 may 2010-cu ildə təsdiq edilib. Bu gün - iyulun 30-u İnsan Alverinə Qarşı Mübarizə Günü kimi qeyd edilir. Ölkəmizdədə insan alverinə qarşı mübarizə geniş vüsət alıb. Bununla bağlı respublikamızda hüquqi-normativ baza müəyyən edilib. Prezidentin 2004-cü il 6 may tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı”hazırlanıb.

### Necə mübarizə aparmalı?

Hər şeydən əvvəl maarifləndirmə tədbirlərinin artırılmasına ehtiyac var. Bu cinayətlə mübarizənin yollarından biri də qadın və uşaqların hüquqi və sosial müdafiəsinin gücləndirilməsi, insan alverinə şərait yaradan sosial problemlərin həllinə yönəldilmiş proqramların hazırlanması və həyata keçirilməsidir. İnsan alverinin potensial qurbanlarının ictimai faydalı əməyə cəlb edilməsi, onların məşğulluğunun təmin edilməsi vacib şərtdir. Təkcə cəmiyyətdə deyil, potensial qurbanlar arasında da maarifləndirmə və təbliğat işinin təşkili mütləqdir. Qurbanlar onları gözləyən təhlükə, müdafiə tədbirləri və hüquqi baza barədə məlumatlı olmalıdırlar. Ən əsası, təhsildən yayınan uşaqların aşkar edilməsi, onların təlim və tərbiyəsinə diqqət edilməsi çox vacibdir. Cəmiyyətin qazandığı hər bir yeniyetmə bir qurbanın azalması deməkdir...

*Yeganə BAYRAMOVA*

Dərin hüznlə bildiririk ki, 91-lərdən olan, Yeni Azərbaycan Partiyasının veteranı, “Dilarə Əliyeva küçəsi 227” üzrə ƏPT sədri Hacan Hacıyev vəfat etmişdir.

Hacan Hacıyev ömrünü dövlətimizə, cəmiyyətimizə və elmin inkişafına həsr etmiş, uzun illər ərzində səmərəli fəaliyyəti ilə hər zaman hörmət və ehtiram qazanmışdır. Onun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı adından Mərhumun ailəsinə, yaxınlarına, doğmalarına və onu sevən hər kəsə dərin hüznlə başsağlığı verir, Allahdan rəhmət diləyirik.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4515**
**Sifariş: 959**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova